8 fevral 2019 №11 (1596)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Cəfər Cabbarlının yubileyi Ankarada qeyd ediləcək

Fevralın 12-də Ankarada – Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) mərkəzi qərargahında görkəmli dramaturq, şair, yazıçı, teatr və kino xadimi Cəfər Cabbarlının 120 illik yubileyi münasibətilə konfrans keçiriləcək.

Yubiley tədbiri TÜRKSOY-un həyata keçirdiyi “Türk dünyasının görkəmli şəxslərinin tanıdılması” layihəsi çərçivəsində gerçəkləşəcək.

Konfransda professor İsrafil İsrafilovun Cəfər Cabbarlının həyat və yaradıcılığı ilə bağlı məruzəsi dinləniləcək.

İştirakçılara yubilyarın yaradıcılığını əhatə edən geniş bədii proqram da təqdim ediləcək.

## Azərbaycan musiqiçiləri Moskva Dövlət Konservatoriyasında

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyası rəhbərliyinin birgə təşəbbüsü və təşkilatçılığı ilə 2018-ci ildə Rusiya paytaxtında musiqiçilərimizin iştirakı ilə silsilə konsertlər keçirilib.

“Azərbaycan musiqiçiləri Moskva Dövlət Konservatoriyasının kamera zallarında” silsiləsinin davamı olaraq 2019-cu ildə də konsert proqramları nəzərdə tutulub. Fevralın 16-da Moskva Dövlət Konservatoriyasının Raxmaninov zalında tanınmış pianoçu, Azərbaycanın Əməkdar artisti, professor, Türkiyədə yaşayan həmyerlimiz Gülşən Ənnağıyevanın iştirakı ilə “İbarələr” (“Фразы”) adlı fortepiano musiqisi axşamı keçiriləcək.

səh. 2

## Kinorejissor Tofiq Tağızadə anadan olmasının 100-cü ildönümündə anıldı

Fevralın 7-də – Azərbaycan kino sənətinin inkişafında böyük xidmətləri olan rejissor, Xalq artisti Tofiq Tağızadənin (1919-1998) anadan olmasının 100-cü ildönümündə kino ictimaiyyətinin nümayəndələri II Fəxri xiyabana gələrək sənətkarın məzarını ziyarət etdilər. Məzar önünə tər çiçək dəstələri qoyuldu, görkəmli kino xadiminin xatirəsi ehtiramla yad olundu.



Tofiq Tağızadə çəkdiyi bütün filmlərdə özünü professional rejissor kimi təsdiq edib. Sənətkarın rəngarəng mövzulu silsilə ekran əsərləri, o cümlədən “Uzaq sahillərdə”, “Arşın mal alan” (1965), “Yeddi oğul istərəm”, “Dədə Qorqud” kimi filmləri Azərbaycan kinosunun qızıl fonduna daxil olmuş parlaq sənət nümunələridir.

səh. 2




## “Mövsümün sonu” üçün “Parlaq gələcək”

Azərbaycanlı rejissor Elmar İmanovun çəkdiyi “Mövsümün sonu” filmi Rotterdam Beynəlxalq film festivalında (Niderland) “FIPRESCI” mükafatına layiq görülüb.

Mükafatlandırma mərasimində filmin əsas heyəti də iştirak edib. Mərasimdə çıxış edən rejissor festivala dəvətə görə təşəkkürünü bildirib, mükafata layiq görüldükləri üçün məmnun olduqlarını deyib.

səh. 4

# Ölkəmiz İslam Əməkdaşlıq Təşkilatı Festivalında təmsil olunur

“Bir millət, mədəniyyətlərin müxtəlifliyi...” devizi altında gerçəkləşən festival tarixi-mədəni irsdən folklor və mətbəxədək geniş spektri əhatə edir

Xəbər verdiyimiz kimi, Misir Ərəb Respublikasının paytaxtı Qahirə şəhərində İslam Əməkdaşlıq Təşkilatı Festivalı (Festival of the Organization of İslamic Cooperation) keçirilir. Fevralın 5-də başlanan festivalda 20-dən artıq ölkənin nümayəndələri iştirak edir.



İslam Əməkdaşlıq Təşkilatı Katibliyinin təşəbbüsü və üzv ölkələrin dəstəyi ilə “Bir millət, mədəniyyətlərin müxtəlifliyi...” şüarı altında gerçəkləşən festival tarixi-mədəni irsdən folklor və mətbəx mədəniyyətinədək geniş spektri əhatə edir.

İlk dəfə təşkil olunan festivalın məqsədi İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin xalqlarının yaxınlaşması, eləcə də quruma üzv olmayan ölkələrdəki müsəlman icmalarına dəstək, İslam dünyasında xalqların vahid din və adət-ənənə, dil və irs müxtəlifliyi əsasında həmrəyliyinin möhkəmləndirilməsidir.

Festivalda ölkəmiz də təmsil olunur. Tədbirə Azərbaycan Respublikası mədəniyyət nazirinin müşaviri Aydın İsmiyevin rəhbərlik etdiyi nümayəndə heyəti qatılıb. Heyətə xanəndə, Xalq artisti Simarə İmanova ilə birgə muğam üçlüyü, Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının üzvləri daxildir.

davamı səh. 3-də

## Kitablarımız Minskdə beynəlxalq sərgi-yarmarkada

Fevralın 6-da Belarus paytaxtında XXVI Minsk Beynəlxalq Kitab Sərgi-Yarmarkası açılıb. Ənənəvi sərgidə ölkəmiz də təmsil olunur.




Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və ölkəmizin Belarusdakı səfirliyinin dəstəyi ilə sərgi-yarmarkada milli stendimiz qurulub. Stenddə respublikamızın müasir inkişafı, tarixi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Xocalı soyqırımı ilə bağlı nəşrlər, bədii ədəbiyyat nümunələri, müxtəlif mövzularda kitablar sərgilənir. Milli stendimizi ziyarət edənlərə mədəniyyətimiz, tariximiz, adət-ənənələrimiz, müasir ədəbiyyatımız haqqında geniş məlumat verilir, onlara jurnal, informasiya bukletləri paylanılır.

Sərgi-yarmarkanın açılış mərasimində Belarusun informasiya naziri Aleksandr Karlyukeviç, Rusiya Prezidentinin beynəlxalq və mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy, digər rəsmilər iştirak ediblər.

İştirakçılar tərəfindən maraqla qarşılanan Azərbaycan stendini Belarus rəsmiləri, xarici ölkələrin diplomatları, habelə Rusiya Prezidentinin xüsusi nümayəndəsi Mixail Şvıdkoy, ölkəmizin Belarusdakı səfiri Lətif Qəndilov ziyarət edib.

Stenddə Azərbaycan Dövlət Nəşriyyatı – “Azərnəşr”in kitabları, respublikamızın müxtəlif nəşriyyatlarının çap məhsulları nümayiş olunur.

XXVI Minsk Beynəlxalq Kitab Sərgi-Yarmarkası fevralın 10-dək davam edəcək.

## “Layiq görüldüyümüz mükafat həm də böyük məsuliyyət deməkdir”

Xəbər verdiyimiz kimi, dövlət başçısının sərəncamı ilə ölkəmizdə mədəniyyət, elm, təhsil və ictimai fəaliyyət sahələrində xüsusi fərqlənən 6 nəfər gənc 2019-cu il üçün Prezident mükafatına layiq görülüb.

“Gələcəyə Körpü” Gənclər İctimai Birliyinin icraçı direktoru Hüseynxan Hacızadə, Azərbaycanı BMT səviyyəsində təmsil edən ilk sosial sahibkar, təlimçi Sara Rəcəbli, Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin dirijoru Mustafa Mehmandarov, AMEA-nın Genetik Ehtiyatlar İnstitutunun İnsan genetikası laboratoriyasının müdiri Allahverdi Şahverənov, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) magistrantı Masər Həsənov və Naxçıvan MR Şahbuz rayonu Ağbulaq kənd tam orta məktəbinin ingilis dili müəllimi Nigar Mirzəmmədova gənclər üçün Prezident mükafatı ilə təltif olunublar.

davamı səh. 4-də

## “Çox şadam ki, Azərbaycanda məni aktyor kimi sevənlər var...”

Ötən ay (25-30 yanvar) Bakıda ilk dəfə İtaliya-Azərbaycan film festivalı keçirildi. Festival çərçivəsində italyan rejissor və aktyorların ustad dərsləri, gənc kinematoqrafçılarla görüşlər təşkil edildi.

İtaliyadan gələn kinematoqrafçılar arasında festivalın prezidenti, məşhur aktyor və rejissor Remo Girone də var idi. O, vaxtilə “Sprut” serialında canlandırdığı Tano Cariddi obrazı ilə keçmiş sovet məkanında, o cümlədən Azərbaycanda tanınmışdı. Bakıda festival zamanı onunla həmsöhbət olduq.

***- Cənab Girone, bu festivala qədər ölkəmiz haqqında təsəvvürünüz vardımı?***

- Bura gələnədək Azərbaycanla bağlı məlumatım vardı. Kino sahəsində çalışan dostlarım hər zaman mənə Bakı haqqında danışırdılar. Şəhərin gözəlliyi, burada “kiçik Venesiya”nın yaradılması və s. Nəhayət ki, bütün bunları öz gözlərimlə gördüm. İçərişəhəri də gəzdik. Hətta burada öyrəndim ki, Neapol və Bakı qardaşlaşmış şəhərlərdir. Azərbaycanlı həmkarlarımız bizə maraqlı mədəni proqram təşkil ediblər. İnanıram ki, bu mədəni proqramla ölkənizi daha yaxından kəşf edəcəyəm. Bu vaxta kimi Azərbaycanda olmadığıma görə təəssüflənirəm.

davamı səh. 5-də

## Mədəniyyət yolunda yorulmaz təəssübkeş

Həbib bəy Mahmudbəyov ötən əsrin əvvəllərində Azərbaycan maarifçiliyində və teatr sənətində xidmətlər göstərmiş ziyalılarımızdan biridir.

H.Mahmudbəyov çətin məqamlarda bir çoxlarına yardım göstərib. Məlumdur ki, Hüseyn Ərəblinskinin uşaqlıq illəri ehtiyac və sıxıntı içində keçib. O, kiçik yaşlarından atasını itirir, təhsil xərcini ödəyə bilmədiyi üçün məktəbi buraxmalı olur. Lakin H.Mahmudbəyov onu da rus-tatar məktəbinə qəbul edir...

səh. 7

“May ayında Bakıda konsertimiz olacaq”



səh. 8

VII Muğam televiziya müsabiqəsinin seçim turları yekunlaşır

səh. 2



Türk dünyasının bəstəkarları “Sənət kəndi”ndə bir araya gəliblər

səh. 8

## Xalq rəssamı Rafis İsmayılovun yubiley sərgisi




Mədəniyyət Nazirliyinin, Azərbaycan Dövlət Rəsm Qalereyasının təşkilatçılığı ilə fevralın 15-də Muzey Mərkəzində Xalq rəssamı Rafis İsmayılovun 80 illik yubileyi münasibətilə sərginin açılışı keçiriləcək.

Rafis İsmayılov 30 mart 1939-cu ildə Bakıda anadan olub. 1962-ci ildə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbini, 1972-ci ildə Moskva Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun Rəssamlıq fakültəsini bitirib. Həmin ildən "Azərbaycanfilm" kinostudiyasında işləyib, 30-dək bədii ("Qatır Məmməd", "Sevinc buxtası", "Qara gölün cəngavərləri", "Dantenin yubileyi" və s.) və cizgi filminin quruluşçu rəssamı olub. O, həmçinin Akademik Milli Dram Teatrı və Azərbaycan Dövlət Opera və Balet Teatrında bir sıra tamaşalara bədii tərtibat verib.

2008-ci ildə rəssamın "Şərqdən-Şərqə" adlı sərgisi keçirilib. Əsərləri R.Mustafayev adına Azərbaycan Milli İncəsənət Muzeyi, Moskva Dövlət Şərq Xalqları İncəsənət Muzeyi, Azərbaycan Dövlət Rəsm Qalereyasında, yerli və xarici şəxsi kolleksiyalarda saxlanılır.

## Azərbaycan musiqiçiləri Moskva Dövlət Konservatoriyasında

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyası rəhbərliyinin birgə təşəbbüsü və təşkilatçılığı ilə 2018-ci ildə Rusiya paytaxtında musiqiçilərimizin iştirakı ilə silsilə konsertlər keçirilib.

2018-ci ilin 16 noyabr tarixində Moskva Dövlət Konservatoriyasının Ağ zalında tanınmış pianoçu, Xalq artisti, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru Ülviyyə Hacıbəyovanın, dekabrın 17-də Raxmaninov zalında Əməkdar artist, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti Fəridə Məmmədova və konsertmeyster Yuliya Kərimovanın iştirakı ilə konsertlər olub.

Dekabrın 18-də Raxmaninov zalında dahi Azərbaycan bəstəkarı, SSRİ Xalq artisti Qara Qarayevin 100 və Azərbaycanın Xalq artisti, Moskva Dövlət Konservatoriyasının professoru Fərəc Qarayevin 75 illiyinə həsr olunmuş yubiley gecəsi təşkil edilib. Konsertlərdə Azərbaycan bəstəkarlarının əsərləri ilə yanaşı, xarici ölkələrin bəstəkarlarının da əsərləri səslənib və rusiyalı tamaşaçıların böyük marağına səbəb olub.

"Azərbaycan musiqiçiləri Moskva Dövlət Konservatoriyasının kamera zallarında" silsiləsinin davamı olaraq 2019-cu ildə də konsert proqramları nəzərdə tutulub.

Fevralın 16-da Moskva Dövlət Konservatoriyasının Raxmaninov zalında tanınmış pianoçu, Azərbaycanın Əməkdar artisti, professor, Türkiyədə yaşayan həmyerlimiz Gülşən Ənnağıyevanın iştirakı ilə "İbarələr" ("Фразы") adlı fortepiano musiqisi axşamı keçiriləcək.

Konsertdə Gülşən Ənnağıyevanın ifasında Edison Denisov, Olivye Messian, Viktor Yekimovski, Nazim Mirişli, Yuri Vorontsov, Klod Debüssi və Fərəc Qarayevin əsərləri səslənəcək.

## Filarmoniyada naxçıvanlı bəstəkarın yubiley gecəsi

Fevralın 7-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Naxçıvan Bəstəkarlar Təşkilatının məsul katibi, Əməkdar incəsənət xadimi, bəstəkar Kamal Əhmədovun 70 illiyinə həsr olunmuş yubiley gecəsi keçirilib.



Tədbirdə Azərbaycan Bəstəkarlar İttifaqının katibi, Əməkdar incəsənət xadimi Sərdar Fərəcov yubilyarın həyat və yaradıcılığından danışıb. Bildirib ki, konservatoriyada görkəmli bəstəkar Xəyyam Mirzəzadənin sinfində sənətin sirlərini mənimsəyən K.Əhmədov təhsil illərində fortepiano üçün "Prelüd və fuqalar", "Variyasiyalar", tar üçün "Sonata", simli alətlər ansamblı üçün "Kvartet", diplom işi kimi böyük simfonik orkestr üçün "Cavid" simfonik poemasını yazıb.

Bəstəkarın xalq çalğı alətləri orkestri üçün yazdığı "Cəngi", "Süita", "Naxçıvan eskizləri", "Rekviyem" kimi əsərləri öz orijinallığı ilə fərqlənir. Mahnı yaradıcılığında naxçıvanlı şairlərin əsərlərinə müraciət edən K.Əhmədov "Qızlar bulağı", "Qoşa çinar", "Gözlərinə baxan zaman", "Zəfər marşı", "Anacan", "Milli Ordumuz", "Bənövşə", "Unutdun məni", "Bu yolu seçdim", "Keçmə" və digər mahnıların bəstəkarı kimi tanınır. O, həmçinin "Dəli yığıncağı", "Dirilən adam", "Fərhad və Şirin" tamaşalarına musiqi yazıb.

Gecədə Xalq artisti Ağaverdi Paşayevin bədii rəhbərliyi ilə Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri bəstəkarın əsərlərindən ibarət konsert proqramı ilə çıxış edib.

## Bern şəhərindəki Qarabağ məktəbinə kitablar hədiyyə edilib

Diaspora İş üzrə Dövlət Komitəsinin (DİDK) nümayəndə heyəti İsveçrədə səfərdə olub. Səfər çərçivəsində Sürix və Bern şəhərlərində rəsmi şəxslər, burada yaşayan soydaşlarımız, türk icmasının nümayəndələri ilə görüşlər keçirilib.

Nümayəndə heyəti Bern şəhərində fəaliyyət göstərən Qarabağ məktəbində də olub, şagirdlərə Azərbaycan dilində dərsliklər, ingilis dilində "Qarabağ xalçaları", "Azərbaycan mətbəxi" və "Azərbaycan mədəniyyəti" kitabları hədiyyə edilib.

## Muğam televiziya müsabiqəsinin seçim turları yekunlaşır

Heydər Əliyev Fondunun dəstəyi, Azərbaycan Mədəniyyət Fondunun layihəsi əsasında, Mədəniyyət Nazirliyinin iştirakı və Azərbaycan Televiziyasının təşkilatçılığı ilə keçirilən VII Muğam Televiziya Müsabiqəsinin bölgələr üzrə aparılan seçim turu başa çatıb.

Müsabiqənin münsiflər heyətinin üzvü, Xalq artisti Mənsum İbrahimov bildirib ki, seçim turları Bərdə, Şəki, Gəncə və İsmayıllı rayonlarında təşkil olunub. Seçim turlarına 400-ə yaxın iştirakçı qatılıb. 4 bölgə üzrə 30 nəfər ikinci tura vəsiqə qazanıb. 8-11 fevral tarixində Bakıda seçim turu keçiriləcək.




Xalq artisti Mələkxanım Əyyubova ilk dəfə münsiflər heyətinin tərkibində seçim turlarını izlədiyini bildirib: "Bərdə, Şəki, Gəncə və İsmayıllıda baş tutan seçim turlarında ətraf rayon və şəhərlərin istedadlı gəncləri də iştirak edirdi. Səbir, təmkin və diqqətlə bütün iştirakçıları dinlədik. Seçim turları açıq və tam şəffaf şəkildə keçirildi. Muğam ifaçılığı göz qarşısında olan sənətdir. Hamı dinləyirdi və fikrini bildirirdi. Müsabiqə dövlətimizin adına layiqli bir tədbir, eyni zamanda bizlər üçün şərəfli bir iş və məsuliyyətdir".

Qeyd edək ki Bakıda seçim turu Beynəlxalq Muğam Mərkəzində keçiriləcək və bununla müsabiqə iştirakçılarının müəyyənləşdirilməsi prosesi başa çatacaq. Müsabiqə ənənəvi olaraq mart ayında Beynəlxalq Muğam Mərkəzində keçiriləcək və Novruz bayramı günlərində başa çatacaq.

**Lalə AZƏRİ**

## Kinorejissor Tofiq Tağızadə anadan olmasının 100-cü ildönümündə anıldı

Fevralın 7-də – Azərbaycan kino sənətinin inkişafında böyük xidmətləri olan rejissor, Xalq artisti Tofiq Tağızadənin (1919-1998) anadan olmasının 100-cü ildönümündə kino ictimaiyyətinin nümayəndələri II Fəxri xiyabana gələrək sənətkarın məzarını ziyarət etdilər. Məzar önünə tər çiçək dəstələri qoyuldu, görkəmli kino xadiminin xatirəsi ehtiramla yad olundu.





Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının sədri, Xalq artisti Şəfiqə Məmmədova Tofiq Tağızadənin 100 illiyi ilə bağlı Prezident İlham Əliyevin sərəncam imzaladığını diqqətə çatdırdı. Vurğuladı ki, il ərzində yubiley müxtəlif tədbirlərlə geniş şəkildə qeyd olunacaq.

Şəfiqə Məmmədova sənətkarın həyat və yaradıcılığından söz açaraq bildirdi ki, Tofiq Tağızadə Moskvada Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun Kinorejissorluq fakültəsini bitirdikdən sonra "Azərbaycanfilm" kinostudiyasında fəaliyyətə başlayıb, quruluş verdiyi ekran əsərləri ilə milli kino tariximizi zənginləşdirib. Ömrünün 40 ildən çox dövrünü kinoda keçirən Tofiq Tağızadə çəkdiyi bütün filmlərdə özünü professional rejissor kimi təsdiq edib.

Cəfər Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyasının direktoru Müşfiq Hətəmov qeyd etdi ki, Tofiq Tağızadə dünya kinematoqrafiyasının mütərəqqi təcrübəsindən yaradıcı şəkildə bəhrələnərək özünəməxsus dəst-xətti ilə Azərbaycan kino sənətinə mühüm yeniliklər gətirib. Onun filmlərinin hər birinin öz maraqlı süjeti var, rejissorun mövzulara özünəməxsus yanaşma tərzi isə milli kinomuzda yeni nəfəsdir.

Direktor onu da bildirdi ki, kinostudiyada çalışmış görkəmli sənətkarların xatirəsini əbədiləşdirmək istiqamətində iş aparılır: "Vaxtilə çalışdıqları otaqlara onların adı veriləcək, orada şəxsi əşyaları qoyulacaq. Ötən il Rasim Ocaqovun adına belə bir otaq yaradılmışdı. Yaxın vaxtlarda Tofiq Tağızadənin də yaradıcılıq otağı açılacaq".

Xalq artistləri – kinorejissorlar Eldar Quliyev, Oqtay Mirqasımov, aktyor, rejissor Əbdül Mahmudov və başqaları çıxış edərək Tofiq Tağızadə ilə bağlı xatirələrini bölüşdülər. Qeyd olundu ki, sənətkarın yüksək estetik meyarlarla xalqımızın mədəni, mənəvi irsini canlandıran və müasirlərinin həyatını dolğun əks etdirən rəngarəng mövzulu silsilə ekran əsərləri, o cümlədən "Uzaq sahillərdə", "Arşın mal alan" (1965), "Yeddi oğul istərəm", "Dədə Qorqud" kimi filmləri Azərbaycan kinosunun qızıl fonduna daxil olmuş parlaq sənət nümunələridir. Tofiq Tağızadənin respublikada kino işinin təşkili və kadr hazırlığı sahəsində də təqdirəlayiq xidmətləri var.

Sonda çıxış edən rejissorun qızı – Xalq artisti İranə Tağızadə atasının xatirəsinə göstərilən yüksək ehtirama görə minnətdarlığını bildirdi.

**FARİZ**

## Milli Qəhrəman Mübariz İbrahimovun xatirəsi yad edilib

Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun (1988-2010) anadan olmasının 31-ci ildönümü ilə bağlı fevralın 7-də Ağstafa Regional Mədəniyyət İdarəsinin tabeliyindəki Qazax rayon E.Hüseynov adına Mərkəzi kitabxanasının Uşaq şöbəsi Ş.Çobanov adına Ağköynək kənd tam orta məktəbində "Əfsanəvi qəhrəman – Mübariz İbrahimov" adlı görüş keçirib.

Məktəb kollektivi ilə birgə təşkil olunan tədbirdə kitabxananın əməkdaşı Gülbəsti Musayeva Milli Qəhrəmanın həyat və döyüş şücaəti haqqında məlumat verib. Məktəbin pedaqoqları Aygün Abdullayeva, Şölə Qasımova, Yeganə Həsənova Mübariz İbrahimovun qəhrəmanlığından danışıb və onun bugünkü gənclərə örnək olduğunu qeyd ediblər.

Şagirdlər vətənpərvərlik mövzusunda və Milli Qəhrəmana həsr olunmuş şeirlər söyləyiblər.

* * *

Sabirabad rayon Mədəniyyət Mərkəzində Milli Qəhrəman Mübariz İbrahimovun doğum günü ilə əlaqədar sərgi açılıb. Sabirabad Regional Mədəniyyət İdarəsinin məsləhətçisi Aynur İsmayılova, Mədəniyyət mərkəzinin direktoru Mirtale Ağazadə Mübariz İbrahimovun misilsiz qəhrəmanlığının əsl vətənpərvərlik və cəsarət nümunəsi olduğunu bildiriblər.



Sərgidə Mədəniyyət mərkəzinin nəzdində fəaliyyət göstərən rəsm dərnəyi şagirdlərinin Milli Qəhrəmanı təsvir edən rəsmləri, Mübariz İbrahimov haqqında kitablar, fotolar nümayiş olunub.

* * *

Milli Qəhrəmanın doğum günündə Bakıda, Azərbaycan Dillər Universitetində (ADU) "Mübariz İbrahimov – vətənpərvərlik nümunəsi" mövzusunda yazı müsabiqəsi qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

ADU-nun rektoru, müsabiqənin münsiflər heyətinin sədri, akademik Kamal Abdulla



Milli Qəhrəman Mübariz İbrahimovun doğma Vətən, torpaq yolunda göstərdiyi igidliklərdən danışıb.

Münsiflər heyətinin üzvü, jurnalist İlham Tumas, Qarabağ qazisi, jurnalist Rey Kərimoğlu, "İrəli" İctimai Birliyinin sədri Mirhəsən Seyidov, layihə rəhbəri, ADU-nun tələbəsi Şahin Sərdarlı Milli Qəhrəmanın keçdiyi şərəfli döyüş yolundan bəhs ediblər.

Müxtəlif şəhər və rayonlardan 300-dək tələbə, şagird, müəllim və mütəxəssisin qatıldığı müsabiqənin nəticələrinə görə, 1 nəfər birinci, 2 nəfər ikinci, 3 nəfər üçüncü yerə, 7 nəfər həvəsləndirici mükafata layiq görülüb.

## "Nənə-baba və baldan şirin nəvələr"

Sumqayıt Regional Mədəniyyət İdarəsinin dəstəyi ilə Sumqayıt şəhər Mərkəzi Uşaq Kitabxanasında 8 fevral – Beynəlxalq nənələr və babalar günü münasibətilə "Nənə-baba və baldan şirin nəvələr" adlı tədbir keçirilib.



Tədbirdə balaca oxucular milli-mənəvi dəyərləri, məişət əşyalarını özündə əks etdirən sərgi-guşə ilə tanış olub, "Qoğal" rus nağılı əsasında hazırlanan kukla tamaşası, "Nənə-babalarımızı niyə sevirik?" adlı videofilm izləyiblər.

Tədbir uşaqların təqdim etdiyi şən mahnılar, tapmacalar, rəqslər və kompozisiyalarla davam edib.

## Almaniyalı professor Mərkəzi Elmi Kitabxanada

34 minlik tələbə heyəti ilə Avropanın ən nüfuzlu elm və təhsil mərkəzlərindən sayılan Berlin Humboldt Universitetinin professoru Klaudia Luks Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında (MEK) olub.

Almaniyalı qonaq kitabxana ilə tanışlığa oxucuların qeydiyyatı hissəsindən başlayıb. O, kitabxananın e-oxucu kartını əldə edib, e-kataloqdan alman dilində kitab sifariş verib.

Alman professora MEK-in akademiklər zalında yerləşən diplomatik fondda diplomatik nümayəndəliklər tərəfindən kitabxanaya təqdim edilmiş kolleksiyaların formalaşdırılması qaydaları, kitabxananın proqram təminatı bazasının fəaliyyəti barədə də məlumat verilib.

Klaudia Luks 5 il Qətər Dövləti Milli Kitabxanasının layihə direktoru işləyib.

# Ölkəmiz İslam Əməkdaşlıq Təşkilatı Festivalında təmsil olunur

## "Bir millət, mədəniyyətlərin müxtəlifliyi..." devizi altında gerçəkləşən festival tarixi-mədəni irsdən folklor və mətbəxədək geniş spektri əhatə edir

*əvvəli səh. 1-də*

Sənətçilərimiz Qahirə Opera Teatrında təşkil olunan açılış mərasimində çıxış ediblər. Muğam üçlüyünün ifası, rəqs qrupunun çıxışı tamaşaçıların alqışları ilə qarşılanıb. Festivalda Azərbaycan musiqiçiləri ilə yanaşı 20-dən çox ölkənin folklor və musiqi kollektivləri də iştirak edir.

Festivalın açılış mərasimində İslam dünyasına xüsusi töhfələri olan şəxslər təltif olunub. Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Allahşükür Paşazadə də mükafata layiq görülüb.

Tədbir çərçivəsində Allahşükür Paşazadə İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif bin Əhməd əl-Useymin ilə görüşüb. Baş katib bildirib ki, Prezident İlham Əliyevin Şərq və Qərb sivilizasiyasını dialoq platforması ilə daha da yaxınlaşdırmaq təşəbbüsü real nəticələrini verir. Bunun nəticəsidir ki, Azərbaycan Şərqlə Qərb arasında mənəvi körpü rolunu oynayır.




Şeyxülislam A.Paşazadə İslam Əməkdaşlıq Təşkilatının müsəlman ölkələrində gördüyü işlərin sülhə və tərəqqiyə səbəb olduğunu bildirib, qurumun təşkilatçılığı ilə baş tutan festivalın davamlı olacağına əminliyini ifadə edib.

Qeyd edək ki, fevralın 9-dək davam edəcək festivalın proqramı müxtəlif mədəni və bədii tədbirləri, elmi seminarları, təqdimatları əhatə edir. Silsilə tədbirlər Qahirə Opera Teatrında, Əl-Hənacir İncəsənət Mərkəzində, Böyük İslam Muzeyində, Ərəb Dövlətləri Liqasının binasında, Əl-Əzhər əş-Şərif və digər yerlərdə təşkil edilir. Proqrama beynəlxalq islam təsisatları – İslam Tarix, İncəsənət və Mədəniyyət Mərkəzi, Ticarətin İnkişafı üzrə İslam Mərkəzi, İslam Həmrəylik Fondu, həmçinin İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı (İSESCO) və s. qurumların təqdimatları da daxildir.

Festival çərçivəsində İslam Əməkdaşlıq Təşkilatı dövlətlərinin Xəbər Agentlikləri Birliyinin (UNA) fotosərgisi də təşkil olunub. Sərgidə Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) fotoları da yer alıb. Sərginin ziyarətçiləri Azərbaycanın tarixini, müasir memarlıq nümunələrini, turizm potensialını əks etdirən fotolarla tanış olurlar.

# Larisa Rudakovanın ustad dərsləri davam edir

Artıq bir neçə gündür ki, Rusiyanın Əməkdar artisti, vokalçıların beynəlxalq müsabiqələrinin laureatı, Moskva Dövlət Konservatoriyasının dosenti Larisa Rudakova Bakıdadır. İfaçılıq ilə yanaşı, həm də uğurlu pedaqoji fəaliyyətlə məşğul olan tanınmış vokalçı Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının rəhbərliyinin təklifi ilə paytaxtımıza gəlib. O, teatrda çalışan gənc vokalçılara ustad dərsi keçir.

1964-cü ildə Sverdlovsk vilayətinin Lesnoy şəhərində anadan olan L.Rudakova 1992-ci ildə Moskva Dövlət Konservatoriyasını bitirərək Böyük Teatrda çalışmağa başlayıb. Lirik-koloratur səs tembrli vokalçı 90-cı illərdə bir-birinin ardınca beynəlxalq müsabiqələrdə qalib gəlib. 1995-ci ildə BBC telekorporasiyası Larisa Rudakovanın adını dünyanın ən yaxşı gənc vokalçısı beşliyinə daxil edib.

Larisa Rudakova davamlı olaraq Böyük Teatrla yanaşı, dünyanın məşhur opera səhnələrində çıxış edib, N.Gedda, V.Kazarova, P.Dominqo, F.Arayza, L.Nuççi, Y.Nesterenko, Y.Obrazsova, T.Sinyavskaya kimi opera ulduzları ilə eyni səhnəni paylaşıb. Teatr səhnəsində Violetta («Traviata»), Antonida («İvan Susanin»), Müzetta («Bohema»), Cilda («Riqoletto»), Mikaela («Karmen»), Lüdmila («Ruslan və Lyudmila»), İolanta («İolanta») və başqa partiyaları ifa edib.



P.Çaykovski adına Moskva Dövlət Konservatoriyasının müəllimi olan vokalçının tələbələri beynəlxalq müsabiqələr laureatıdır, Rusiya və Avropa teatrlarında solist olaraq çalışırlar.

**G.MİRMƏMMƏD**

# "Yaradanlar və yaşadanlar"da xanəndə Əbülfət Əliyev yad olunub

Beynəlxalq Muğam Mərkəzində "Yaradanlar və yaşadanlar" layihəsi çərçivəsində reallaşan növbəti konsert görkəmli xanəndə, Xalq artisti Əbülfət Əliyevin yaradıcılığına həsr olunub.

Tanınmış incəsənət ustalarının iştirakı ilə təqdim olunan konsertdə bir-birindən parlaq mahnılar səsləndirilib.

Xalq artisti Ağa Cəbrayıl Abasəliyevin bədii rəhbəri olduğu "Səadət" instrumental ansamblının müşayiəti ilə gerçəkləşən konsert proqramının sonunda xanəndələr – Xalq artisti Təyyar Bayramov, əməkdar artistlər İlkin Əhmədov və Ehtiram Hüseynov "Dolanaram başına" mahnısını birgə ifa ediblər.

Beynəlxalq Muğam Mərkəzində milli ədəbi və mədəni irsin təbliği və inkişafı məqsədilə müxtəlif layihələr həyata keçirilir.

"Mədəniyyət" kanalı ilə birgə, Mədəniyyət Nazirliyinin dəstəyi ilə reallaşdırılan "Yaradanlar və yaşadanlar" layihəsi ölməz sənətkarların irsini gənc nəslə tanıtmaq və təbliğ etmək məqsədi daşıyır.

# Bakıda violin ifaçılarının beynəlxalq müsabiqəsi

Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında (BMA) görkəmli violin ifaçısı, pedaqoq, ictimai xadim Azad Əliyevin 90 illiyi münasibətilə violin ifaçılarının birinci beynəlxalq müsabiqəsinin açılış mərasimi olub.



BMA-dan bildirilib ki, müsabiqənin ideya müəllifi və təşkilatçısı BMA-nın professoru, Azad Əliyevin tələbəsi, professor Məleykə Əhədzadədir. Müsabiqənin münsiflər heyətinə xalq artistləri, professorlar Zəhra Quliyeva, Şəhla İbrahimova, Əməkdar incəsənət xadimi, professor Nəzmiyyə Abbaszadə, Türkiyə, Qazaxıstan, İsrail və Özbəkistandan nümayəndələr daxildir.

Müsabiqə fevralın 9-dək Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında davam edəcək. Müsabiqəyə ölkəmizlə yanaşı, Özbəkistan, Ukrayna, Qazaxıstan və Rusiyadan iştirakçılar qatılıb. Müsabiqə violin solo, violin duet, kamera ansamblı və konsertmeysterlik ustalığı olmaqla dörd nominasiya üzrə keçirilir.

# Regional idarə üzrə mədəniyyət işçiləri ilə görüşlər keçirilib

Xaçmaz rayon Heydər Əliyev adına Mədəniyyət mərkəzində, Quba, Şabran və Siyəzən rayon mədəniyyət mərkəzlərində Mədəniyyət Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsinə həsr olunmuş müşavirə ilə əlaqədar mədəniyyət işçiləri ilə görüşlər keçirilib.

Xaçmaz Regional Mədəniyyət İdarəsinin rəisi Nazim Ağayev ölkə başçısının 15 yanvar 2019-cu il tarixli fərmanı barədə məlumat verib. Bildirib ki, fərmanda ölkədə kitabxana sisteminin yenidən qurulması, dövlət mülkiyyətində olan muzeylərin fəaliyyətinin optimallaşdırılması və daha təkmil muzey fəaliyyətinin təşkili, nazirliyin tabeliyindəki musiqi məktəblərinin fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə inzibati-ərazi vahidləri üzrə daha kompakt təşkili, mədəniyyət mərkəzlərinin, mədəniyyət evlərinin və klubların, rəsm qalereyalarının fəaliyyətinin təkmilləşdirilməsi kimi mühüm məsələlər əksini tapıb.

İdarə rəisi Mədəniyyət Nazirliyində həyata keçirilən müvafiq tədbirlər haqqında məlumat verib. Qeyd olunub ki, Xaçmaz Regional Mədəniyyət İdarəsi tərəfindən yaradılan xüsusi komissiya idarə üzrə rayonlarda fəaliyyət göstərən klub və kitabxanalarda monitorinqlər aparacaq.

# Monteneqroda tarix və mədəni irsimizin təbliği

Azərbaycan-Monteneqro Mədəni və İqtisadi Əlaqələr Mərkəzinin direktoru Seyran Mirzəzadə bu ölkənin dövlət radiosunun "Mozaika" və "Mədəniyyətin gücü" verilişlərinin qonağı olub.

O, ölkəmizin mədəniyyəti, tarixi, adət-ənənələri, ədəbiyyatı, musiqisi, xalçaçılıq sənəti, memarlığına dair sualları cavablandırıb. Həmçinin Azərbaycan Xalq Cümhuriyyəti, XX əsrin sonunda dövlət müstəqilliyimizin bərpası, eləcə də Azərbaycan ilə Monteneqro arasında mədəniyyət sahəsində əlaqələrin inkişafı haqqında bəhs olunub.



Verilişlərdə Müslüm Maqomayevin, Alim Qasımovun, Əlixan Səmədovun ifalarında musiqilər səsləndirilib.

Mərkəzin yeni layihəsi çərçivəsində Azərbaycanın görkəmli şəxsiyyətlərinin həyatı, yaradıcılığı haqqında Monteneqro dilində silsilə məqalələrin yayılmasına başlanılıb. "Azərbaycan zəngin mədəni irsi olan ölkədir" və "Bəxtiyar Vahabzadə - Azərbaycanın azadlıq şairi" adlı məqalələr Monteneqronun avlija.me xəbər portalında dərc edilib. Növbəti məqalələr Podqoritsa şəhərində büstü ucaldılmış görkəmli şair, dramaturq Hüseyn Cavid və dahi mütəfəkkir Nizami Gəncəviyə həsr olunub.

# Dahi bəstəkarın ev-muzeyində

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin kollektivi və tabeliyindəki qurumların əməkdaşları dünya şöhrətli bəstəkar, SSRİ Xalq artisti, akademik Qara Qarayevin anadan olmasının 101-ci ildönümü münasibətilə sənətkarın ev-muzeyində olublar.

Baş idarədən bildirilib ki, qonaqlara ev-muzeyi, bəstəkarın fəaliyyəti, yazdığı əsərlər haqqında ətraflı məlumat verilib. Vurğulanıb ki, Qara Qarayev bu mənzildə gəncliyini, tələbəlik illərini keçirib və ilk əsərlərini, o cümlədən "Yeddi gözəl" baletini burada yazıb.



Qeyd olunub ki, Qara Qarayev Azərbaycan professional musiqisinin banisi Üzeyir Hacıbəylinin və tanınmış rusiyalı bəstəkar Dmitri Şostakoviçin tələbəsi olub. Milli musiqimizi öz dövrünün avanqard bəstəkarlıq texnikası ilə uzlaşdıraraq mədəniyyət tariximizdə yeni səhifə açıb.

Sonra ziyarətçilər muzeyin ekspozisiyasında bəstəkarın həyat və yaradıcılıq yolunu əks etdirən nadir materiallar – sənədlər, əlyazmalar, fotoşəkillər, tamaşa və konsert afişaları, musiqiçinin şəxsi əşyaları və istifadə etdiyi məişət əşyaları ilə tanış olublar.

# Rus avanqard rəssamlarının sərgisi

Fevralın 17-də Heydər Əliyev Mərkəzində "Zamanında. Rusiya regional muzeylərinin 1900-1930-cu illərə aid rus avanqardı kolleksiyaları. Üçüncü hissə" adlı sərgi açılacaq.




Mərkəzdən bildirilib ki, ekspozisiyada Rusiyanın 17 şəhərində regional muzeylərdən toplanmış unikal avanqard kolleksiyası nümayiş olunacaq. Ekspozisiyada tanınmış avanqard klassiklər – Kazimir Maleviç, Vasili Kandinski, Aleksandr Rodçenko, Vladimir Tatlin, Aleksandr Ekster, Mark Şaqal ilə yanaşı, Viktor Bart, Aleksey Qrişenko, Aleksey Morqunov, Sergey Romanoviç, Pavel Mansurov kimi avanqard incəsənət tarixinə mühüm töhfələr vermiş sənətkarların yaradıcılığından nümunələr təqdim olunacaq.

Ümumilikdə 60 əsərin yer alacağı ekspozisiya 2016 və 2017-ci illərdə Moskvada nümayiş olunmuş "Zamanında. Birinci hissə" və "Zamanında. İkinci hissə" sərgilərinin eksponatlarını birləşdirir və rus avanqardının 1900-cü illərin ortalarında formalaşmasından başlayaraq 1930-cu illərin əvvəllərindəki tənəzzülünə qədər olan dövrü əhatə edir. Layihənin əsas ideyası məşhur, az tanınmış və ümumiyyətlə tanınmamış avanqard rəssamların Rusiya regional muzeylərinin kolleksiyalarında qorunan əsərlərini təqdim etmək, XX əsrin ilk 30 ilində rus incəsənətindəki əsas üslubları nümayiş etdirməkdir.

İncəsənət tarixçisi Andrey Sarabyanovun kuratoru olduğu sərgi Rusiyanın Yəhudi Muzeyi və Tolerantlıq Mərkəzi, Moskva Müasir İncəsənət Muzeyi ilə əməkdaşlıq çərçivəsində təşkil olunur. Heydər Əliyev Mərkəzində sərgi mayın 5-dək davam edəcək.

# Fortepiano musiqisi axşamı

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin G.Şaroyev adına 35 nömrəli onbirillik Uşaq musiqi məktəbində "Fortepiano musiqisi axşamı" adlı konsert keçirilib.



Konsertdə məktəbin şagirdləri Azərbaycan, Qərbi Avropa, Rusiya bəstəkarlarının əsərlərini, həmçinin fortepiano ilə orkestr üçün bəstələnmiş konsertləri məharətlə ifa ediblər.

Proqramda əsasən aşağı sinif şagirdlərinin ifasına yer verilib, şagirdləri "İpək Yolu" kamera orkestri (bədii rəhbər və baş dirijor – Əməkdar artist Vaxtanq İmanov) müşayiət edib.

Sonda məktəbin direktoru – Azərbaycan Milli Konservatoriyasının dosenti, Əməkdar müəllim Yusif Vəliyev bütün qonaqlara, orkestrin bədii rəhbəri V.İmanova, bütün ifaçılara təşəkkürünü bildirib.

# "Bu dünyanın fidanları"

Bakıdakı Atatürk Mərkəzində "Bu dünyanın fidanları. Дети – сияние планеты" kitabının təqdimatı olub.



Azərbaycan və rus dillərində nəşr olunan kitab Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal rayon MKS-nin Mərkəzi kitabxanasının yazıçı-publisist, şair Sevinc Basqallı ilə birgə həyata keçirdiyi layihə əsasında işıq üzü görüb.

Təqdimat mərasimində MKS-nin direktoru, layihənin rəhbəri Lətifə Məmmədova çıxış edərək kitab haqqında məlumat verib.

Kitabın müəllifi Sevinc Basqallı uşaqların maraq dünyasından, onların tərbiyəsində, vətəndaş kimi yetişməsində mütaliənin əhəmiyyətindən danışıb. Bildirib ki, ibtidai və orta sinif şagirdləri üçün nəzərdə tutulan kitabda Azərbaycan və rus dillərində maraqlı şeir və hekayələr toplanıb.

əvvəli səh. 1-də

# “Layiq görüldüyümüz mükafat həm də böyük məsuliyyət deməkdir”

Mədəniyyət sahəsində xüsusi fərqləndiklərinə görə mükafat alan iki gənc istedadımızı daha yaxından tanıyaq.

### “Bundan sonra daha çox çalışmalıyam”

Bakı Musiqi Akademiyasını skripka ixtisası üzrə bitirən Mustafa Adil oğlu Mehmandarov daha sonra ilk azərbaycanlı olaraq Vyana Konservatoriyasında opera-simfonik dirijorluğu üzrə təhsil alıb. Ölkə başçısının sərəncamina əsasən, onun adı gənc istedadların “Qızıl kitab”ına daxil edilərək Prezident təqaüdünə layiq görülüb. Hazırda Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin dirijoru kimi fəaliyyət göstərən Mustafa Mehmandarov bu günə kimi çoxsaylı beynəlxalq və yerli festival və müsabiqələrdə uğur qazanıb.

Prezident mükafatına layiq görülməsi və mükafatın şəxsən dövlət başçısı tərəfindən təqdim edilməsindən məmnuniyyət duyduğunu dilə gətirən musiqiçi deyir: “Bundan sonra daha çox çalışmalıyam. Dövlətimiz tərəfindən göstərilən qayğı, layiq görüldüyümüz mükafat həm də böyük məsuliyyət deməkdir. Bu mükafatlandırma gənclərin yaradıcılığına verilən qiymətin bariz nümunəsidir. Mükafat təkcə mənim deyil, bütövlükdə mədəniyyət sahəsinə göstərilən diqqətdir. Mənə dəstək olan insanlara təşəkkür edir və bütün yaradıcı gənclərə uğurlar arzulayıram. Bir daha dövlətimizə gəncliyə göstərdiyi diqqət və qayğıya görə minnətdarlığımı bildirirəm”.




Gənc dirijor qarşıdakı konsertləri haqqında da məlumat verdi. Bildirdi ki, mart ayının əvvəlində filarmoniyada Azərbaycan Dövlət Simfonik Orkestrinin maraqlı konsert proqramı təqdim ediləcək: “Bir neçə xarici ölkədə konsertlər nəzərdə tutulub. TÜRKSOY Kamera orkestri ilə yeni layihələr üzərində çalışırıq”.

Onu da qeyd edək ki, TÜRKSOY Kamera orkestri 2010-cu ildə yaradılıb. Mustafa Mehmandarov bu orkestrdə üç il skripkaçı kimi fəaliyyət göstərib. 2016-cı ildən dirijor olaraq orkestri idarə edir.

### “Bu mükafat yaradıcılığıma böyük stimuldur”

Yüksək mükafata layiq görülmüş daha bir istedadlı gəncimiz Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti Kino və televiziya fakültəsinin magistrantı Məsər Fuad oğlu Həsənovdur. Məsər təltiflə bağlı sevincini öncə ailəsi ilə bölüşdüyünü dedi: “Mükafatın cənab Prezident tərəfindən təqdim ediləcəyini biləndə isə sevinclə yanaşı, həyəcan keçirdim. Əlbəttə ki, bu mükafat bir gənc olaraq yaradıcılığıma böyük stimuldur. Məni mükafata layiq gördüyü üçün ölkə başçımız İlham Əliyevə dərin təşəkkürümü bildirirəm. Bundan sonra artıq çiyinlərimdə böyük bir məsuliyyət hiss edirəm və mənə olan etimadı doğrultmağa söz verirəm. Hazırda Mədəniyyət və İncəsənət Universitetinin Rejissorluq fakültəsində magistr təhsilimi davam etdirirəm. Diplom işimə hazırlıq prosesindəyəm”.

Həmsöhbətim gələcək planlarından da danışdı: “Tammetrajlı film çəkmək istəyirəm. Hələ ki, son filmim olan “Deja vu” bir neçə beynəlxalq festivalda iştirak edib. Ümid edirəm ki, uğurlu nəticələr olacaq. Bu günə kimi mənə dəstək olan insanlara təşəkkür edirəm”.

Xatırladaq ki, Xalq artisti, görkəmli kinorejissor Eldar Quliyevin tələbəsi olan Məsər Həsənov müxtəlif müsabiqələrdə, ADMİU-da keçirilən “İlin tələbəsi” layihəsi çərçivəsində mükafat, diplom və sertifikatlarla təltif olunub. 2017-ci ildə Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının təsis etdiyi Rasim Ocaqov adına təqaüdə layiq görülüb. Onun “Deja vu” filmi Türkiyə, Rusiya və Rumıniyada beynəlxalq festivallarda iştirak edib, ölkəmizdə keçirilən beynəlxalq “START” film festivalında “Jürinin rəğbəti” nominasiyası üzrə mükafat qazanıb. Gənc rejissorun “Sevgi naminə” qısametrajlı bədii filmi isə “9th Independent International Internet Short Film Festival”da (ABŞ) birinci dərəcəli laureat seçilib.

Prezident mükafatına layiq görülən bütün gənclərimizi təbrik edir, onlara fəaliyyətlərində yeni uğurlar arzulayırıq.

**L.AZƏRİ**

# Genuya Universitetində Azərbaycan-İtaliya münasibətlərinə dair konfrans

İtaliyanın Genuya Universitetində “25 illik Azərbaycan-İtaliya münasibətləri Aralıq dənizi, Qara dəniz və Xəzər dənizinin şahidliyi kontekstində” mövzusunda elmi konfrans keçirilib.

Konfransda Azərbaycanı AMEA-nın Fəlsəfə İnstitutunun direktoru, fəlsəfə üzrə elmlər doktoru, professor İlham Məmmədzadə, institutun şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru Zöhrə Əliyeva, Prezident yanında Dövlət İdarəçilik Akademiyasının professoru, hüquq üzrə elmlər doktoru İsaxan Vəliyev təmsil ediblər.

“Azərbaycan və İtaliya fəlsəfəsinin qarşılıqlı təsiri” mövzusunda çıxış edən İlham Məmmədzadə iki ölkə alimləri arasında əlaqələrdən, rəhbərlik etdiyi institutun İtaliyanın Ca Foscari, Genuya universitetləri ilə mütəmadi elmi tədbirlər keçirməsindən söhbət açıb.

“Azərbaycan-İtaliya mədəni əlaqələri hüquqi müstəvidə” mövzusunda çıxış edən professor İsaxan Vəliyev iki dövlət arasında diplomatik əlaqələrin tarixinə diqqət çəkib, multikulturalizmin Azərbaycan modelinin hüquqi əsaslarından danışıb.

Zöhrə Əliyeva “Azərbaycan-İtaliya münasibətləri: dinlərarası dialoq prizmasında” mövzusunda çıxış edib.

Tədbirdə Ca Foscari Universitetinin professoru Aldo Ferrari, Trento Universitetindən professor Gian Franco Poggi, Milan Universitetinin professoru Alessandro Vitale və digər çıxış edənlər Azərbaycan və İtaliya arasında mədəni əlaqələrin əhəmiyyətindən danışıblar.

İtaliyada nəşr olunan nüfuzlu “Geopolitika, sosial müdafiə və azadlıq” adlı beynəlxalq elmi jurnalda Azərbaycan alimlərinin elmi məqalələri dərc edilib.

# “Mövsümün sonu” üçün “Parlaq gələcək”

Azərbaycanlı rejissor Elmar İmanovun çəkdiyi “Mövsümün sonu” filmi Rotterdam Beynəlxalq film festivalında (Niderland) “FIPRESCI” mükafatına layiq görülüb.

Mükafatlandırma mərasimində filmin əsas heyəti də iştirak edib. Mərasimdə çıxış edən rejissor festivala dəvətə görə təşəkkürünü bildirib, mükafata layiq görüldükləri üçün məmnun olduqlarını deyib.

Mükafatın sevincini qəzetimizlə bölüşən Elmar İmanov rejissor və prodüser kimi bütün komandanın festivalda iştirakından şad olduğunu bildirdi: “Festivalda filmin ilk nümayişi həm də dünya premyerası idi. Nümayiş zamanı bütün kollektivin bir arada olması və filmin beynəlxalq kino tənqidçilərinin “FIPRESCI” mükafatına layiq görülməsi sevindirici hadisə idi. Layihəni dəstəkləyənlərə, o cümlədən “Azərbaycanfilm” kinostudiyasının direktoru Müşfiq Hətəmova minnətdarlığımı bildirirəm. Almaniyadan olan əsas




prodüser Eva Blondiau, filmin yaradıcı heyəti olmadan yaqin ki, belə uğurlu bir iş ərsəyə gəlməzdi. İnanıram ki, tezliklə “Mövsümün sonu”nun Azərbaycanda da premyerasını reallaşdırmaq mümkün olacaq”.

Festivalda iştirak edən baş rol ifaçısı, Əməkdar artist Rasim Cəfərov ekran əsəri haqqında məlumat verdi. Qeyd etdi ki, film ailə-məişət mövzusundadır. Bir ailədə yaşayan ata, ana və oğulun münasibətləri, üç fərqli insan, üç fərqli düşüncə və birbirindən bezmiş bu insanların daxili problemləri diqqət mərkəzinə çəkilir. Yanvarın 23-dən fevralın 3-dək davam edən festivalın proqramının çox zəngin olduğunu deyən aktyor digər ölkələrdən olan həmkarları ilə ünsiyyətin də əhəmiyyətini vurğuladı: “Festival çərçivəsində “Mövsümün sonu” filmi bir neçə dəfə nümayiş olundu. Hər nümayişdən sonra biz auditoriya ilə ünsiyyətdə olurduq. Onların suallarını cavablandırırdıq. Hər kəs filmlə bağlı fikirlərini bölüşürdü. Film çox yaxşı qarşılandı, münsiflər müsbət fikirlər səsləndirdi. Tamaşaçıların ekran əsəri haqqında gözəl sözləri də bizi sevindirirdi. Film Avropa tamaşaçısının diqqətini cəlb edə bildi. Festivalın “Bright Future” (“Parlaq gələcək”) proqramında 19 film yarışırdı. Bu filmlərdən ikisi mükafata layiq görüldü ki, onlardan biri də “Mövsümün sonu” oldu”.

Rasim Cəfərov bir sıra kütləvi informasiya vasitələrində film haqqında çoxsaylı materialların dərc olunduğunu da diqqətə çatdırdı.

Qeyd edək ki, “Color of May” kinoşirkətinin C.Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyası, “Azharifrey”, “Maisis Peri” şirkətləri ilə müştərək ərsəyə gətirdiyi ekran əsərinin çəkilişləri ölkəmizdə aparılıb. Filmdə əsas rolları Xalq artisti Qurban İsmayılov, Əməkdar artist Rasim Cəfərov, aktyorlar Zülfiyyə Qurbanova, Mirmövsüm Mirzəzadə və başqaları ifa ediblər.

**LALƏ**

# “Azərbaycan mətbəxində dolmalar. 381 çeşid” kitabının təqdimatı

Fevralın 6-da Bakı Kitab Mərkəzində Heydər Əliyev Fondunun dəstəyi ilə uzun müddət nəşri üzərində iş aparılan və yeni işıq üzü görmüş “Azərbaycan mətbəxində dolmalar. 381 çeşid” adlı kitabın təqdimatı keçirilib.

Mərkəzin direktoru Günel Rzayeva giriş sözündə kitabın milli mətbəximizin təbliğində əhəmiyyətini qeyd edib.

Azərbaycan Milli Kulinariya Mərkəzinin sədri Tahir Əmiraslanov bildirib ki, tarixi torpaqlarımıza göz dikən ermənilər milli mətbəx nümunələrimizə də əl uzatmaqdan çəkinmir, onları özününküləşdirməyə cəhd edirlər. Buna görə də düşmənlə bütün cəbhələrdə, o cümlədən kulinariya sahəsində mübarizə aparmaq lazımdır. O, Azərbaycan mətbəx mədəniyyətinin qorunması, dünyada tanıdılmasında, o cümlədən dolmanın Azərbaycanın qeyri-maddi mədəni irs nümunəsi kimi UNESCO-nun siyahısına salınmasında





Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xüsusi rolunu, dəstəyini diqqətə çatdırıb və nəşrin bu dəstək sayəsində ərsəyə gəldiyini deyib.

Qeyd edib ki, kitabda 2016-cı il Abşeronda, 2017-ci ildə Xaçmazda keçirilən dolma festivallarında təqdim olunan dolma növləri də daxil olmaqla ümumilikdə bu yeməyin 381 növü haqqında məlumat verilir. Bu növlər ölkəmizin bütün rayon, kənd və şəhərlərindən toplanıb.

Azərbaycan Dövlət Turizm Agentliyi Aparatının rəhbəri Kənan Qasımov, Milli Məclisin deputatları Qənirə Paşayeva, Ülviyyə Ağayeva, Azərbaycan Turizm və Menecment Universitetinin rektoru İlham Mədətov, Xaçmaz Regional Mədəniyyət İdarəsinin rəisi Nazim Ağayev, Sumqayıt Regional Mədəniyyət İdarəsinin baş məsləhətçisi İlham Manafov, “Simurq” Azərbaycan Mədəniyyət Assosiasiyasının prezidenti Fuad Məmmədov və başqaları kitabın dolma növlərinin aşkara çıxarılmasında və təbliğində əhəmiyyətini vurğulayıblar.

Qeyd edək ki, kitabın müəllifləri Tahir Əmiraslanov, Aygül Əsgərova, Ceyran Əsgərova, Aynurə Əmiraslanova və Ağakərim Şamidzadə, tərtibatçı-dizayneri Elnarə Heybətovadır.

# UNESCO siyahısındakı türk dəyərləri

## “Qaragöz” kölgə teatrı oyunu



2009-cu ildə UNESCO-nun Qeyri-maddi və mədəni irs siyahısına daxil edilmiş Türkiyənin “Qaragöz” kölgə teatrı oyununun yaranma tarixi XVI əsrə gedib çıxır. Məzəli Qaragöz ilə yanaşı bu tamaşalarda onun tərəfdaşı Hacıvat, şəhər əhli, Anadolu kəndliləri, Dərviş və b. iştirak edir.

Bir fərziyyəyə görə, “Qaragöz” teatrının tarixi qədim Yunanıstandan başlayır. Qaragöz ağıllı və hazırcavab saray təlxəyi kimi təbii yumoru, cəsarəti və müşahidə qabiliyyəti ilə seçilən “məzəli qul” imiş. İtirilsə neyisə olmadığından o, zəmanəni və dövranı istədiyi qədər sərt tənqid edirmiş. Digər fərziyyəyə görə, kölgə teatrı ənənəsi Türkiyəyə Misirdən gəlib, sonradan bu sənətdə türk motiv və xarakterik xüsusiyyətləri meydana çıxıb.

Bu gün dünya xalq teatrları arasında öz yerini tutmuş “Qaragöz” teatrı gördüyümüz formada XVII əsrdə formalaşıb. Müsəlman aləmində teatrın, incəsənətin küfr əməl sayıldığı zamanda da türklərin “Qaragöz”ü yasaq edilməyib, hətta kölgə teatrı qəhrəmanının tərəfdaşı Hacıvat da bu zaman peyda olub. “Qaragöz” teatrının populyarlığı artdığından hətta sultan sarayında da müntəzəm olaraq tamaşalar göstərilirmiş.

Xarakterinə gəlincə, Qaragöz hər şeylə maraqlanan, çox fəhmli olsa da, bəzən bilərəkdən özünü korazehin göstərən personajdır. Hacıvat ilə Qaragözün münasibəti də tamaşalarda heç də həmişə eynixətli deyil. Elə bu səbəbdən də onların az qala hər dialoqu tamaşaçılarda gülüş doğurur. Qaragöz ilə Hacıvatın əhvalatları tamaşaçıların yaşına görə dəyişir. Tamaşa mətnlərində uşaqlar üçün yumşaq şirin yumordan, nəsihətamiz olaylardan istifadə edilirsə, böyüklər üçün tamaşalarda satira və sarkazma üstünlük verilir.

Tamaşalarda iştirak edən fiqurlar camış gönündən və ya dəvə dərisindən düzəldilir. Dəri parçalarını bir-birinə elə calayırlar ki, insan fiquruna oxşasın, sonra da təbii hazırlanmış xüsusi boyalarla rəngləyirlər.

“Qaragöz” teatrı bütün Osmanlı imperiyasının ərazisinə, eləcə də digər ərazilərə yayılıb. Azərbaycan türklərinin dilindəki “qaragözlük etmək” ifadəsinin kökü də bu xalq teatrı janrından qidalanır.

Məsələn, Türkiyə Qaragözünün təsiri ilə Yunanıstanda müasir yunan xalq teatr personajı - Qaragiozis meydana çıxıb. Onun dostu Hacıvatın adı isə Xadziavatisa kimi tələffüz olunur.

Yeri gəlmişkən, 2018-ci ildə Suriyanın təqdim etdiyi “Kölgə oyunu” nominasiyası da UNESCO siyahısına daxil edilib. Həmin kölgə teatrında baş qəhrəmanlar Qaragöz və dostu Eyvazdır.

**G.MİRMƏMMƏD**

# Kazanda 44 ölkədən 400 film göstəriləcək

Aprelin 24-dən 30-dək Tatarıstanın paytaxtı Kazanda XV Beynəlxalq Müsəlman Kino Festivalı keçiriləcək. Festivala qatılmaq üçün iştirakçı ərizələrinin qəbulu fevralın 1-də başa çatıb. Tatarıstan Respublikası Mədəniyyət Nazirliyindən bildiriblər ki, təşkilat komitəsinə 44 ölkədən 400 film üçün iştirak ərizəsi daxil olub.

Festival çərçivəsində bir sıra paralel proqramlar nəzərdə tutulub. Tamaşaçılar Koreya, Tunis, Serbiya, Afrika kinosu ilə tanış ola biləcəklər. Kino forumu günlərində Eldar Ryazanov və Sergey Qovoruxinin kinolentləri, müxtəlif illərdə Rusiya Dövlət Kinematoqrafiya İnstitutunu bitirmiş məzunların ən yaxşı filmləri nümayiş etdiriləcək. Ənənəvi olaraq, festival çərçivəsində tanınmış kinematoqrafçılarla yaradıcılıq görüşləri, ustad dərsləri, kino sənətinin aktual problemlərinə həsr olunmuş dəyirmi masalar da keçiriləcək.

**GÜLCAHAN**



# Türkiyəli qonaqlar "O olmasın, bu olsun" tamaşasını maraqla izləyiblər

Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral, xanımı Meltem Özoral, səfirliyin əməkdaşları, Azərbaycan Türkiyə İş Adamları Birliyi (ATİB) idarə heyətinin sədri Cemal Yanqın və idarə heyətinin üzvləri Azərbaycan Dövlət Musiqili Teatrında olublar.

Qonaqlara Azərbaycanda peşəkar musiqili teatr sənətinin 1910-cu ildən başlanan tarixi, teatrın yaradıcılıq yolu, binası, ölkə başçısının sərəncamı ilə burada aparılan yenidənqurma işlərindən sonrakı fəaliyyəti və mövcud şəraiti ilə bağlı məlumat verilib.

Sonra qonaqlar teatrın səhnəsində dahi bəstəkar Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" tamaşasını (quruluşçu rejissor – Xalq artisti Cənnət Səlimova) seyr ediblər. Onlar səhnə əsərindən çox böyük zövq aldıqlarını söyləyərək, belə yüksək səviyyədə hazırlanan tamaşaların təbliğ olunmasının, ümumiyyətlə, teatrı insanların həyat tərzinə çevirməyin vacibliyini vurğulayıblar.

Tamaşanın sonunda səfir Erkan Özoral və nümayəndə heyətinin üzvləri aktyorlarla görüşüb, yaradıcı kollektivə təşəkkürlərini bildirib, xatirə şəkilləri çəkdiriblər.

Qeyd edək ki, səhnə əsərində əməkdar artistlər Əzizağa Əzizov, Novruz Qartal, Şövqi Hüseynov, Səidə Şərifəliyeva, Almaz Ələsgərova, aktyorlar Möylə Mirzəliyev, Məhərrəm Qurbanov, Nadir Xasıyev, Elxan İsmayılov, Ağaxan Şərifov, Ataş Qarayev, Elməddin Dadaşov, Telli Hüseynova, Təranə Əliyeva, Fərid Rzayev, Əli Kərimov, Rüstəm Rüstəmov və başqaları çıxış edirlər.

# Niyazinin mənzil-muzeyində tanınmış violonçel ifaçısı ilə görüş

Fevralın 5-də Niyazinin mənzil-muzeyində violonçel ifaçısı, Xalq artisti, professor Eldar İsgəndərovla görüş keçirilib.



Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova çıxış edərək sənətkarın həyat və yaradıcılığı haqqında məlumat verib.

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi Cəlil Məlikov, Rafiq Babayev adına 25 nömrəli Uşaq musiqi məktəbinin direktoru Əmirhüseyn Hüseynov, Bakı Musiqi Akademiyasının professoru, bəstəkar, Əməkdar incəsənət xadimi Elnarə Dadaşova, Xalq artisti, bəstəkar Azər Dadaşov, Əməkdar artist, skripka ifaçısı Leonid Barştak və muzeyin şöbə müdiri Xanım Abdinova sənətkarın musiqi mədəniyyətimizin inkişafında xidmətlərindən danışıblar.

Eldar İsgəndərov iştirakçıların suallarını cavablandırıb, yaradıcılıq planları haqqında məlumat verib.

Tədbir 25 saylı Uşaq musiqi məktəbinin şagirdlərinin, məktəbin kamera ansamblı, violonçel ansamblı və kiçik simfonik orkestrinin ifasında təqdim olunan konsert proqramı ilə davam edib.

# Xalq rəssamı Hüseynqulu Əliyevin 70 illik yubileyi keçirilib

C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında tanınmış rəssam və heykəltəraş, Xalq rəssamı, professor Hüseynqulu Əliyevin 70 illik yubileyi qeyd olunub.



Tədbirdə Naxçıvan Muxtar Respublikasının (MR) mədəniyyət naziri Natəvan Qədimova çıxış edərək Ali Məclisin sədri Vasif Talıbovun adından yubilyara hədiyyə təqdim edib.

Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov, Naxçıvan MR Rəssamlar Birliyinin sədri, Əməkdar rəssam, Milli Məclisin deputatı Ülviyyə Həmzəyeva, Əməkdar rəssam Həbibə Allahverdiyeva, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının direktoru, Xalq artisti Rza Xudiyev, Xalq artisti Kamran Quliyev, Əməkdar rəssam Telman Abdinov, Naxçıvan MR-in Əməkdar rəssamı Səyyad Bayramov yubilyarı təbrik ediblər.

Bildirək ki, rəssam-heykəltəraş Hüseynqulu Əliyev 3 fevral 1949-cu ildə Ordubad rayonunun Bist kəndində anadan olub. Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində və Azərbaycan Dövlət İncəsənət İnstitutunda təhsil alıb. 1982-ci ildən Naxçıvan Dövlət Rəsm Qalereyasında fond müdiri işləyib. 1989-cu ildən Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının baş rəssamıdır.

1988-ci ildə Əməkdar incəsənət xadimi, 2002-ci ildə Azərbaycanın Xalq rəssamı fəxri adlarına layiq görülüb. 2003-cü ildə Naxçıvan Dövlət Universitetinin Təsviri incəsənət və rəngkarlıq kafedrasının müdiri təyin olunub. 2008-ci ildən universitetin dosenti, 2017-ci ildən universitetin professorudur. Azərbaycan Teatr Xadimləri İttifaqının və Azərbaycan Rəssamlar İttifaqının üzvüdür.

**S.QALİBOĞLU**

# "Çox şadam ki, Azərbaycanda məni aktyor kimi sevənlər var..."

## Remo Girone: "Kino sahəsində çalışan dostlarım hər zaman mənə Bakı haqqında danışırdılar"

*əvvəli səh. 1-də*

**- Bizim kino haqqında nə deyə bilərsiniz?**

- Azərbaycan kinosu ilə bağlı o qədər də geniş məlumata sahib deyiləm. Festival çərçivəsində nümayiş olunacaq filmlər sayəsində sizin kino haqqında təsəvvürlərimin yaranacağına əminəm. Çox istərdim ki, Azərbaycan kinematoqrafçıları ilə əməkdaşlıq layihələrimiz olsun. Çünki italyan və azərbaycanlıların oxşar cəhətləri çoxdur. Burada olduğum müddətdə məlum oldu ki, Azərbaycanda italyan filmləri haqqında mükəmməl təsəvvür var. Əfsus ki, İtaliyada Azərbaycan filmləri tanınmır. Bu səbəbdən də inanıram ki, təşkil edilən ilk festival hər iki tərəf üçün müsbət nəticələr əldə etməyə kömək olacaq. Məqsədimiz ölkələrimiz arasında kino sənətinin təbliğidir.

**- Ölkəmizdə sizi "Sprut" serialındakı obrazınızla tanıyıblar...**

- Belə başa düşdüm ki, siz mənim daha çox mafioz və mənfi obrazlar yaratdığımı nəzərdə tutursunuz. Əslində, mən müxtəlif səpkili obrazlar yaratmağı sevirəm. Amma nədənsə, tale elə gətirdi ki, 1977-ci ildə rejissor Skuiterinin "Karleone" filmində mafioz obrazı yaratdım. Bundan sonra rejissorlar məni daha çox bu qəbildən obrazlarda görməyə başladı. Amma mənfi obrazlar da filmlərdə əhəmiyyət kəsb edir. Mən bu obrazlarla mənfi xarakterli insanın mənəvi dünyasını tamaşaçıya çatdırmağa çalışmışam. Amma "Sprut"dakı Tano obrazına qayıdaraq demək istərdim ki, 30 ildən artıq müddət keçməsinə baxmayaraq, məni bu obrazla daha çox tanıyıblar. Azərbaycanda bu serialın sevildiyini bilmirdim. Çox şadam ki, burada məni də aktyor kimi sevənlər var. Sizin rejissor Vasif Babayev mənimlə həm "Sprut" serialı, həm də rollarımla bağlı bir mütəxəssis kimi fikirlərini bölüşdü. Bu mənim üçün gözlənilməz, eyni zamanda xoş təsadüf və tanışlıq oldu.



**- Ən son çəkildiyiniz film barədə məlumat verərdiniz.**

- Sonuncu dəfə ötən ilin yayında premyerası keçirilən "Ford Ferrariyə qarşı" filmində rol aldım. Film ABŞ-da lentə alınıb. Amerikalı kino mütəxəssisləri ilə işləmək xoş idi. Onu da qeyd edim ki, bu filmdə yaratdığım obraz mənfi deyildi. Hazırda bir neçə film təklifləri almışam. Bilirsiniz ki, həyat yoldaşım Viktoriya Jinni də aktrisadır və hazırda mənimlə birlikdə Bakıdadır. Biz çox zaman eyni filmlərdə rol alırıq. Kino mənim həyatımdır. İnanıram ki, Tanrı kino meydançasında hələ çox rollar yaratmağıma imkan verəcək.

**- Festivalın qalibləri xüsusi hazırlanmış "Zoroaster" ("Zərdüşt") mükafatı ilə təltif olundular. Mükafatın bu cür adlandırılması nə ilə bağlıdır?**

- Azərbaycanın tarixi, coğrafiyası haqqında məlumatlı olduğumuz üçün belə qərara gəldik ki, mükafatı bu cür adlandıraq. Onu da qeyd edim ki, Azərbaycanın tarixi məkanları, abidələri çox maraqlıdır. Ona görə də burada olduğum müddətdə Atəşgah məbədini, Qobustan qoruğunu ziyarət etməyə çalışacağam. Çünki Azərbaycan öz tarixi ənənələri, qədim məskən olması ilə diqqətimi çəkir.

**- Festivalla bağlı mətbuat konfransında sizə çoxsaylı suallar ünvanlandı. Təəccübləndiyiniz məqam oldumu?**

- Əlbəttə. Haqqımda bu qədər xoş fikirlər eşidəcəyimi güman etmirdim. Həm də burada İtaliya-Azərbaycan mədəni əməkdaşlığı və tarixi ilə bağlı maraqlı məlumatlar öyrəndim. Azərbaycanlı kino mütəxəssislərinin rollarımı şərh etməsi, kino haqqında düşüncələri məni təəccübləndirdi. İlk səfərdə Bakını sevdim.

**Lalə AZƏRİ**

**Diqqət! Məşq gedir...**

# "Vəsvəsə"yə düşənlər

## yaxud romantik duyğuların sərt reallıqla üzləşməsi

Ağacı qurd içindən yeyən kimi adamı da dərd-sər yeyib bitirir. Belə olmasaydı, hərə bir ağrının əlində çapalamazdı. Çünki elə dərdlər var ki, nə çarə tapır, nə də qurtula bilirsən...

Fərqli teatr cərəyanlarının ortaq məxrəcində tamaşalara səhnə ömrü verilən Dövlət Yuğ Teatrı bu dəfə də bir dərddən qurtulmağın yollarını göstərməyə çalışır. Bunu səhnəyə teatrın quruluşçu rejissoru, eyni zamanda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Səda" tədris teatrının direktoru Gümrah Ömər gətirir. Onunla Tədris teatrında, məşq prosesində görüşdük. İstər özü, istərsə də aktyor heyəti ağır və bir o qədər də romantik çalarlı real mövzunun təsirində idilər...

Tamaşa görkəmli Norveç dramaturqu Henrik İbsenin (1828-1906) "Vahimə" əsəri əsasında hazırlanır. Rejissorun "Vəsvəsə" adını verdiyi səhnə işi martın ortalarında tamaşaçı ilə görüşəcək.

Tamaşanın səhnə tərtibatçısı teatrın baş rəssamı Rəşid Şərif, musiqi tərtibatçısı Amid Qasımovdur. Rolları (dublyorlar da daxil) Zümrüd Qasımova, Mətanət Abbaslı (Qadın), Elxan Abbasov və Amid Qasımov (Keşiş), Oqtay Mehdiyev, Vüqar Hacıyev (Dülgər), Elgün Həmidov (Rəssam) və başqaları ifa edirlər. Onu da əlavə edim ki, tamaşada teatrın əsasən gənc aktyorları iştirak edir.

Rejissor bu səhnə həlli ilə XX əsr Avropasının mənəvi aləmini əks etdirən müəllifin cəmiyyətdə mövcud olan romantik duyğuların sərt reallıqla üzləşməsi prosesinin vizual təcəssümünə çalışır. Bu mənada tamaşa zəmanəmizin əxlaq gerçəklikləri ilə tam səsləşir. Rejissor fərqli baxış bucaqları və obrazlar üzərindən ştrixlərlə bir neçə istiqamətdən bunu göstərməyə çalışır.

Gümrah Ömər: "Tamaşa artıq nəzəri mərhələni keçib, təcrübi mərhələdədir. Psixo-dramatik aksiya kimi düşünülən tamaşaya bu kontekstdən də baxacağıq. Tamaşaçılara öz poetikamıza, öz metodikamıza uyğun maraqlı səhnə məhsulu təqdim edəcəyik".

* * *

Məşq fasiləsi zamanı rejissordan müəllifin qoyduğu hansı problemi daha çox qabartdığını və hansı formada tamaşaçıya çatdıracağını soruşduq. Yəni XX əsr romantizmini və həmin dövrün reallığını əsərlərinə daşıyan dramaturqun ideallarına çağdaş nəzərlərlə nə kimi rəng veriləcək?





- Henrik İbsen dünya ədəbiyyatının görkəmli simalarından biridir. Əsərlərinin qayəsi əbədi və əzəli mövzulara, problemlərə söykənir. Xüsusilə "Vahimə" əsərində insanın varolma problemləri, cəmiyyətdəki rolu, mövqeyi, düşüncəsi şaxələnir. Müəllif diqqətimizi bu ziddiyyətli məqamların içindəki problemlərə yönəldir. Təbii ki, sənətin ən vacib və müqəddəs missiyalarından biri insanın mənəvi dünyasındakı ağrıları işıq üzünə çıxarmaq və hər dövrün tələblərinə görə baxmaqdır. Bilirsiniz ki, çağımızda meyarlar, o cümlədən insana münasibət çox dəyişib. Yaşam şərtləri, dəyərlər sistemində bir sıra məsələlər artıq deformasiyaya uğrayıb. Buna baxmayaraq, hər zaman irəliyə hərəkət vardır.

Əsər forma etibarilə qəribə mövzuya, problemə dayanır. Məlum olur ki, bu yalnız formadır. Forma çaşdırıcı, aldadıcı ola bilər. Amma mahiyyət heç vaxt dəyişmir. Buna görə də İbsenin toxunduğu məsələlər son dərəcə aktualdır. Baxın, çağımızda bir sıra saxta dəyərlər uydurulur və mentalitet, mənəvi dəyərlər adı altında gizlədilir. Əsl həqiqət isə başqadır. Tamaşada bizi düşündürən məsələlərdən biri də budur.

Tamaşanın bir neçə səhnəsinin məşqində də rejissor aktyorlara məhz bunu təlqin edir, bir növ obrazın daxilində yatan ilanı boğmağa çağırırdı. Bu isə elə də asanlıqla alınmırdı. Çünki psixoloji gərginlik fonunda yüksək ideallarin vizual ahəngi çətin prosesdir...

Rejissor izah edir: "İbsen öz dövrü üçün saxta olan, mif kimi görünən məsələləri silkələyib, dağıdıb. Bütövlükdə bu proses daim baş verməlidir. Ədəbiyyatda da, digər yaradıcılıq sahələrində də. Təbii ki, bu baxış da qətiyyən dağıtmaq, sökmək yox, onunla rabitə qurmağa, faydalanmağa söykənməlidir".

Əsərin ideya və çağırışlarına, rejissor yozumuna baxdıqda çox qapalı bir cəmiyyətdə insanların problemlərinin qabardıldığını görürük. Gümrah müəllim bu xüsusda deyir: "Sual edirəm, niyə insanlar özlərini məhkum etməyə, qapamağa, evlərinin hasarlarını hündürə qaldırıb bir-birindən qaçmağa, gizlənməyə çalışırlar? Niyə hər düşündüyümüzü rahat bölüşə bilmirik? Çünki mənən azad və rahat olmaq istəmirik".

H.İbsenin "Vahimə"sində də insanlar bir-birinə açıq deyillər. Müəllif əsər vasitəsilə insanın içində illərlə yığılmış mənəvi naqislikləri, çürük anlayışları bir-bir üzə çıxarır. Əslində, dramaturq bununla insanlara mənəvi dünyasını təmizləmək şansı verir.

Müxtəlif obrazlar və texniki imkanlar fonunda əsərin ana ideyasına köklənən aktyorlar da sanki özləri ilə bir mübarizə, savaş içindədirlər. Burada obraza təslim və ya onun üzərində qələbə kimi iki qütbün savaşı var. Yeganə qalib isə, təbii ki, tamaşaçı olacaq. Çünki savaş başqasına asan və maraqlı olur. Onda, gəlin, birlikdə onların səhnəyə çıxışını gözləyək...

**Həmidə NİZAMİQIZI**

№11 (1596)
8 fevral 2019
www.medeniyyet.az

## Şair Əli Tudənin xatirəsi yad edilib

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında şair, Əməkdar incəsənət xadimi Əli Tudənin (1924-1996) anadan olmasının 95 illiyi münasibətilə ədəbi-bədii gecə təşkil edilib.

Tədbiri kitabxananın direktoru Oruc Quliyev açaraq Əli Tudənin həyat və yaradıcılığı barədə məlumat verib. Bildirib ki, Cənub həsrəti ilə yaşayıb-yaradan şair poeziyamıza rəngarəng, zəngin ədəbi irs bəxş edib. Onun yaradıcılığının əsas qayəsini vətənpərvərlik, xəlqilik, yüksək ideallar təşkil edir.



Əməkdar jurnalist Rəhim Hüseynzadə, filologiya üzrə fəlsəfə doktoru Pərvanə Məmmədli şairin ədəbi yaradıcılığının ideya-bədii xüsusiyyətlərindən bəhs ediblər.

Gecədə Əli Tudənin öz səsində "Mən nə gətirdim" şeiri ilə başlanan sənədli film nümayiş olunub. Azərbaycan Dövlət Pedaqoji Universiteti tələbələrinin ifasında şairin şeirləri səslənib.

Mərhumun oğlu Natiq Əli Tudə atası haqqında xatirələrini bölüşərək tədbir iştirakçılarına təşəkkürünü bildirib.

Sonda "Əli Tudə - 95" adlı kitab sərgisinə baxış keçirilib.

## Dünyada şöhrət tapan musiqilər müəllifi

Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbində Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndəsi, böyük bəstəkar Qara Qarayevə həsr olunmuş "İntibahdan XX əsrə doğru..." adlı tədbir keçirilib.

Musiqişünas Pərvin Səfərli bəstəkarın yaradıcılığını dünya mədəniyyəti kontekstində bəstəkar və xalq yaradıcılığı ilə müqayisəli şəkildə təhlil edib.

Qara Qarayev yaradıcılığında İ.S.Bax ənənələrinin təzahürü, xalq musiqisinə yanaşma tərzindən bəhs olunub, sənətkarın professional caza münasibəti, ispan mədəniyyəti və Yeni Vyana məktəbi ənənələrinin əks olunduğu məqamlar, A.Berq və Q.Qarayevin violin konsertlərindən fraqmentlər videoçarx vasitəsilə təqdim olunub.

Nərgiz Əliyeva, Münəvvər Alıyeva, Jalə Quliyeva və Mahir Tağızadənin ifasında bəstəkarın prelüdləri, "Üç noktürn" silsiləsindən "Yay gecəsi" səslənib.

* * *

Milli Kitabxanada "Unudulmaz bəstəkar – Qara Qarayev" adlı kitab sərgisi açılıb.



Kitabxanadan bildirilib ki, sərgidə Qara Qarayevin not əsərləri, əlyazmaları, səsyazıları və CD-lər, kinofilmlərə və dram tamaşalarına yazdığı musiqi əsərləri, dövri mətbuatda və məcmuələrdə dərc edilmiş məqalələri, habelə Azərbaycan və müxtəlif dünya dillərində həyat və yaradıcılığı haqqında yazılmış 200-dən çox nəşr yer alıb.

* * *



Sabirabad Regional Mədəniyyət İdarəsində "Qara Qarayev: Şərq və Qərbin vəhdəti" adlı tədbir keçirilib. Tədbirdə idarənin rəisi Əhməd Ramazanov, Sabirabad rayon Ü.Hacıbəyli adına Uşaq musiqi məktəbinin direktoru Ceyran Xəlilova çıxış edərək Qara Qarayevin Azərbaycan və dünya musiqisinə töhfələr vermiş zəngin yaradıcılığından söz açıblar.

Xatırlananlar

## Bütün varlığı ilə yaradıcılığa bağlı idi...

### Fəridə Əliyarbəyli – 95

Qədim Gəncə hər zaman Azərbaycana dahi sənətkarlar, böyük söz ustaları, əvəzsiz şəxsiyyətlər bəxş edən diyar olub. Bu gün Gəncənin adı çəkiləndə bəşəri ideyaları özündə cəmləyə bilən klassik Azərbaycan ədəbiyyatının nəhəng simaları, öz sözünü zaman-zaman təsdiqləmiş dühalar – Nizami Gəncəvi, Məhsəti Gəncəvi, Mirzə Şəfi Vazeh kimi fikri və ideyası hər an müasir olan şəxsiyyətlər göz önünə gəlir. Gəncə ədəbi mühiti öz qaynarlığı ilə daima seçilib. Azərbaycanda ilk ədəbi məclis – "Divani-hikmət" də Vazeh tərəfindən burada təşkil olunub...

Gəncə yetirdiyi elm adamları, incəsənət xadimləri ilə fəxr edir, amma söhbət ədəbi mühitdən gedirsə, bu şəhərdəki zəngin ədəbi mühitdən qaynaqlanan, öz sözü və dəst-xətti ilə hər zaman seçilməyi bacaran, məşhur rübai ustası Məhsəti Gəncəvi və Raziyə Gəncəvi kimi qadın şairlərimizin yaradıcılıq bulağından bəhrələnən şairə-dramaturq Fəridə Əliyarbəylinin yaradıcılığından danışmamaq mümkün deyil.

Fəridə Həsən qızı Əliyarbəyli 1924-cü il iyulun 2-də Gəncədə anadan olub. Burada orta məktəbi bitirdikdən sonra 1942-1947-ci illərdə Bakı Dövlət Universitetinin Filologiya fakültəsində təhsil alıb. 1948-ci ildə Azərbaycan Elmlər Akademiyasının Gəncə bölməsində kiçik elmi işçi kimi fəaliyyətə başlayıb.

Mətbuatda dərc edilən bir sıra tarixi faktları vərəqlədikcə məlum olur ki, 1950-1952-ci illərdə Azərbaycan Yazıçılar Birliyi Gəncə filialının işi bir qədər zəifləyib. Bu zaman Bakıda yazıçılar bir araya gələrək filialın fəaliyyətini canlandırmaq üçün tədbirlər planı hazırlayıblar. Səməd Vurğun, Süleyman Rüstəm, Məmməd Rahim, Əli Vəliyev, Süleyman Rəhimov və Əhməd Cəmilin iştirakı ilə keçirilən iclasda Gəncə filialının Fəridə Əliyarbəyli, Nazim Axundov və Nəriman Həsənzadədən ibarət bürosu təsdiq edilib. Fəridə Əliyarbəyli filialın məsul katibi seçilib. O, 1953-1989-cu illərdə Azərbaycan Yazıçılar Birliyi Gəncə bölməsinin rəhbəri kimi də fəaliyyət göstərib.

Fəridə Əliyarbəyli ədəbi fəaliyyətə 1939-cu ildə "Kirovabad bolşeviki" qəzetində çap olunan "A dağlar" adlı şeiri ilə başlayıb. Elə həmin vaxtdan da mətbuatda bədii yazıları ilə çıxışlar edib. O, XX əsrin əvvəllərində Gəncədə yaşayıb-yaratmış Əkbərşah Ruhi barədə sanballı monoqrafiyanın da müəllifidir. 1955-ci ildə "Uşaqgəncnəşr" tərəfindən Fəridə Əliyarbəylinin "Arzular" adlı ilk kitabı çapdan çıxıb. Müxtəlif vaxtlarda "Yasəmən", "Gəncəli qız", "Qayğı", "Sərv ağacı", "Dünyaya insan gəlir", "Novruz bayramı", "Könül çırpıntıları", "Cavad xan türbəsi", "Ona xanım dedilər", "Pürrəng çay", "Sular bulananda", "Dünya, nə qəmlisən" və başqa kitabları nəşr olunub. "Damlardan uca çinar" şeirlər toplusu Moskvada "Sovetski pisatel" nəşriyyatında rus dilində çapdan çıxıb.

Fəridə Əliyarbəylinin nəşr olunan hər bir kitabı geniş oxucu kütləsi və ədəbi ictimaiyyət tərəfindən hər zaman maraqla qarşılanıb. Filologiya elmləri namizədi Ruziyə Quliyeva "Dünya, nə qəmlisən" kitabı haqqında da yazır: "Kitabda toplanmış müxtəlif səpkili şeirlər və poemalar bugünkü həyatımızın dolğun mənzərəsini verir, babalarımızın keçdiyi şərəfli həyat yolunu bir daha yada salır. Bu poetik lövhələr korşalmış yaddaşlarımızı təzələyir, ruhumuza sevinc nuru bəxş edir. Qəmli dünyanın qəmləri içərisində məhv olmuruq, aydınlığa, işığa doğru can atırıq".

Fəridə Əliyarbəylinin ayrı-ayrı kitablarında toplanmış şeirləri və poemaları onu həm lirik, həm də ictimai məzmunlu əsərlər müəllifi kimi tanıda bilib. O, yaradıcılığının son illərində əsasən "səkkizliklər"in yazılmasına böyük əhəmiyyət verirdi. Bu şeirlər çox böyük maraqla qarşılanırdı. Fəridə Əliyarbəylinin "səkkizliklər"i hər zaman ümumbəşəri fikir və duyğularla əhatə olunmaqla seçiyyəvi, dolğun idi.



Şairə Aləmzər Əlizadə xatirələrində yazır: "Mən Fəridə xanımın bütün yaradıcılığına bələdəm. O, sonradan şair olmamışdı. O, şair doğulmuşdu, şair yaranmışdı. Bütün varlığı ilə yaradıcılığa bağlı bir xanım kimi heç vaxt sənətinə biganə qalıb onu əlavə plana keçirmədi. Onu hər yerdə, hər zaman və hər şeydən uca tutdu". Filologiya üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi, şair-dramaturq Sahib İbrahimli isə Fəridə Əliyarbəylini xatırlayarkən onu "Gəncə yazarlarının anası" deyərək yad edir.

Fəridə Əliyarbəyli həmçinin bir neçə dram əsərinin müəllifidir. "Xan qızı", "Qonşular", "Günahkar qız", "Özgə yeri" pyesləri onun yaradıcılığının mühüm bir qolunu təşkil edir. "Xan qızı" tarixi dramı 1972-ci ildə qələmə alınıb və elə həmin ildə də Gəncə Dövlət Dram Teatrının səhnəsində Xalq artisti, rejissor Vaqif Şərifovun quruluşunda tamaşaya qoyulub. Qeyd etməliyəm ki, Fəridə Əliyarbəyli ilk dəfə olaraq Azərbaycan teatrında xan qızı Xurşudbanu Natəvan haqqında tarixi bir dram əsərinin yazılmasına müvəffəq olub. Səhnədə hadisələr cərəyan etdikcə XIX əsrdə Şuşada yazıb-yaradan Xurşudbanu Natəvanı görür, onun həyatına və o illərdə bir insan olaraq gördüyü xoşməramlı işlərə valeh olmaya bilmirsən. Tamaşada bu obrazı Xalq artisti Sədayə Mustafayeva ifa edib. Aktrisanın ifasında Xurşudbanu Natəvan həssas qəlbli ana, lirik, romantik təbiətli şairə, həm də mürtəce qüvvələrə qarşı sərt və barışmazdır.

Fəridə Əliyarbəyli "Xan qızı" tarixi dramının yaranması haqqında öz xatirələrində yazırdı: "70-ci illərin əvvəllərində Xalq artisti Məhəmməd Burcəliyev mənim dram əsəri yazmağımın səbəbkarı oldu. Mən bu xeyirxahlığı heç zaman unutmaram. Biz ailəvi dost idik. Bir gün yenə bir yerə yığışıb söhbət edirdik ki, o, mənə Xurşudbanu Natəvan haqqında pyes yazmağımı məsləhət gördü. Elə bu söhbətdən sonra mən Natəvan haqqında axtarışlar etdim və "Xan qızı" adlı ilk pyesimi yazdım. Pyes üzərində işləyərkən nədənsə həmişə Xalq artisti Sədayə Mustafayevanın xoş siması gözlərimin önündən getmirdi. Sanki mən Xan qızı haqqında düşünərkən elə səhnədə artıq Sədayə xanımı görürdüm. Teatra təqdim etdim və bədii şurada oxuyub bəyəndilər. Tamaşanı hazırlamağı gənc rejissor Vaqif Şərifova həvalə etdilər. Rejissor rol bölgüsündə elə bil ki, qəlbimdən hər zaman keçənləri, duyğularımı oxumuşdu. O, ilk olaraq Xan qızı rolunu Sədayə Mustafayevaya verməyi planlaşdırmışdı. Bundan sonra qəlbimdə heç də narahatçılıq qalmadı. Həm aktrisanın, həm də rejissorun gücünə yaxşı bələd idim. Əsərin uğurlu səhnə taleyi olacağına inanırdım və belə də oldu".

Fəridə Əliyarbəylinin 80-ci illərdə qələmə aldığı "Qonşular" pyesi də maraqlı detalları ilə diqqətçəkən səhnə əsərlərindəndir. Sovet dövründə guya rüşvətxorluqla mübarizə pərdəsi altında əslində bir çox məsələlərin elə bu yolla həll olunduğunu göstərmək yazardan böyük cəsarət tələb edirdi. Fəridə Əliyarbəyli "Qonşular" pyesində korrupsiyaya qurşanan dövlət məmurlarına qarşı mübarizə aparılması yollarını göstərməyə nail olmuşdu. Tamaşanın quruluşçu rejissoru Hilal Həsənov müəllif fikirlərini öz rejissor traktovkasında səhnədə daha dolğun göstərilməsinə çalışırdı. "Qonşular" pyesi haqqında rejissor Vaqif Şərifov öz müsahibələrinin birində deyirdi: "Yadınıza gəlirsə, 1988-1990-cı illərdə meydanlarda mitinqlər gedirdi. O zamanlar sanki teatrın bir qismi meydana köçmüşdü. Bir dənə cəsarətli söz o dövr üçün kifayət idi. O dövrlərdə senzura vardı. Xatırlayıram, Fəridə Əliyarbəylinin "Qonşular" pyesini oynayırdıq. Bu pyes korrupsiya ilə mübarizəyə yönəlmişdi. Pyesdə fikir səslənirdi ki, uşaqlıqda oğurluq üstə yatan indi polis rəisidir və ya rüşvət alan təhsil şöbəsinin müdiridir. Bu kimi fikirlərə görə o dövrlərdə senzura bizə qan uddururdu".

Bütün bunlarla yanaşı, xüsusi olaraq qeyd etməliyəm ki, Fəridə Əliyarbəyli poeziyada olduğu kimi, bütün səhnə əsərlərində də öz mövzularına daima sadiq qalırdı. Müəllif insanın daxili aləmi ilə yanaşı ictimai həyatda mövqeyinə də bir sənətkar münasibəti göstərirdi. Onun son illərdə qələmə aldığı bütün əsərlərində xüsusi olaraq Qarabağ hadisələri və baş verən olaylardakı faciələr, işğal altında olan torpaqlarımızda tökülən günahsız insan qanı, erməni vəhşilikləri bütün incəlikləri ilə göstərilməklə xatırlanır, yad edilirdi.

"Əzəldən qəm üstündə köklənmiş bu dünya kimsəni sona qədər sevmədi, ani, ötəri sevinclər qəmlə əvəzləndi. Gələn də, gedən də qəm odunda qovruldu" deyən Fəridə Əliyarbəyli 2011-ci ilin dekabr ayında Gəncədə əbədiyyətə qovuşdu. Öz misralarında deyildiyi kimi:

*Dünya, nə qəmlisən yaranışından,*
*Gələn də peşiman, gedən peşiman.*
*Dünya, nə qəmlisən,*
*Nə qəmlisən sən.*

**Anar BURCƏLİYEV**
**teatrşünas**

Pritça

## Min yaşlı qocanın istəyi

Hər dəfə bu yolu gedəndə o taya baxmayacağına söz versə də, mümkün olmurdu. Yenə get-gedə ürəyinin döyüntüləri artır, nəfəsi kəsilirdi. İndi halı tələbə vaxtı imtahan biletini çəkmək üçün müəllim stoluna yaxınlaşanda keçirdiyi hislərdən daha dözülməz idi.

Əslində, həmişə imtahanlara yaxşı hazırlaşırdı. Yalnız biletdən kənar, "tələ" suallardan ehtiyat edirdi. Bir də o suallardan qorxurdu ki, onların cavabını hansısa mənbədən oxumaq olmur. Onu yaşamalı, əməllə yerinə yetirməlisən...

26 il öncə damörtüyü, tavanı sökülən, qapı-pəncərəsi olmayan "ev"lər, illər ərzində dibinə arx bağlanmayan təkəmseyrək ağaclar göründü... Baxışları qeyri-ixtiyari o taya tikildi. Aha! Dəfələrlə gördüyü mənzərədə artıq bir dəyişiklik edilib. Doğma ocaqdan yad tüstü qalxır! Bərələn gözlərinə duman çökdüyündən xarabalıqda qırmızı şiferli, yeni təmir olunan evləri axıracan saya bilmədi; bir, iki, üç...

- Oğul, sən də ordansan? Bir saat olar ki, ancaq sağ tərəfə baxırsan. Boynun ağrımır?

Arxasındakı oturacaqda əyləşən qadının sualına gözünü o taydan çəkmədən cavab verdi:

- Hə, oralıyam. Ancaq boynum yox, ruhum ağrıyır...

- Can bala. Füzulidənsən?

- Yox.

- Cəbrayıldan?

- Yox.

- Onda Zəngilandan?

- Bu saydıqlarınızın hamısındanam, hər yerdənəm!

- Oğul, yaman zarafatcılsan ha...

- İki yüz il, bəlkə də lap əvvəlki "zarafat"lar ağrı olub girib bədənimə...

- Allah köməyin olsun, bala!

- Olmur!...

Haradasa 80 kilometr məsafə qət etmişdilər. Ancaq baxışlarını o taydan ayıra bilmirdi. O tay da gözünü qırpmadan ona baxırdı. Heç biri danışmırdı. Elə bil küsülüydülər. Yaxud da güclü bir qüvvə sadəcə baxışmalarına icazə vermişdi. Yox, küsülülər, qan düşmənləri adətən Novruz bayramında barışır, hərdən bir-birinin evinə qonaq da gedirlər. Aradan 26 bayram keçmişdi. Barışmaq üçün birbirinin qapısını döyməmişdilər.



Yurd yerinin, torpağın bu qədər həssas, qəlbiqırıq, aman uman olacağını ağlına gətirməzdi.

Bu zaman bizi o tay-bu taylı eləyən çaya baxa-baxa Araz şairinin sözlərini pıçıldadı:

*Bu torpaq, pilə torpaq,*
*Dilini bilə torpaq!*
*Torpağa kül tökməsən -*
*Dönəcək külə torpaq.*

*Holavar, dədə malım,*
*Dillәndir, qәdәm alım.*
*Qada-bala yüklüsən,*
*Torpağım, qadan alım...*

Düşündü ki, indi istəsə də, baxışlarını ayıra bilmədiyi, sahibini gözləyə-gözləyə ümidi üzülən torpaqların nəinki qadasını ala, bir qarışına belə ayağını basa bilməz. Atasından eşitmişdi ki, sovetlər zamanında Araz boyunca qatarla Bakıdan Naxçıvana, İrəvana gedibgələnləri bu an onun avtobusla şütüdüyü səmtə sarı çox boylandıqlarına görə sorğu-suala tutur, nəzarətə götürürdülər. İndi isə çərxi-fələk tərsinə dönmüşdü. Arazdan şimala həsrətlə baxırdı...

Uzaqdan bu gün-sabah min yaşını qeyd etməyə hazırlaşan Xudafərin körpüsü göründü. Ürəyi sanki başında döyünürdü. Elə bilirdi ki, küsülü torpaqlar kimi Xudafərin də ağzına "durula bilməyən" çayın suyundan alıb səsini çıxarmayacaq. Amma düşündüyü olmadı. Deyəsən, o küsməmişdi. Min ilə yaxındır varlığını qoruduğu sütunlar üzərində qəribə görkəm alıb danışmağa başladı:

- Qəlbindən keçənləri bilirəm. Bir addımlığımdakı, adımı daşıyan kənd (əvvəlki adı Xudayarlı) mənfur ermənilər tərəfindən dağıdılandan sonra bir-iki il gücbəla ilə gözlədim. İlk vaxtlar elə ümidli idim ki. Əsrlərlə yükünü çəkdiklərimin qısa zamanda gəlib mənə hayan olacağını düşünürdüm. İllər ötdükcə ümidlərimin şöləsi azalırdı. Yavaş-yavaş küsməyə başladım. İncimәkdә haqlıyam, ya yox?! Deyəsən, heç məni dinləmirsən axı!

O isə bütün bu olanlardan özünü suçlu hesab edir, xəcalətdən gözünə gün düşmürdü. Əgər Xudafərin 15 aşırımı ilə başından basaraq torpağa gömsəydi, yenə danışmağa sözü yox idi. Birtəhər özünü topladı, güclə eşidiləcək səslə yalnız bunları deyə bildi:

- Haqlısan! Dinləyirəm!

- Bilirsən, ən çox nə vaxt bərk narahat oluram. Yazdan bir ay ötəndə yanımdakı xaraba evlərin divarları səs-səsə verəndə... Hərdən həyətlərdəki ağaclar da onlara qoşulur. Bu vahiməli səsdən sütunlarım az qalır ki, sınsın. Hər yaz bu nisgil təkrarlanır, odsuz ocaqlar hər il yazın gəlişi ilə ümidlənir, sahiblərinin qayıdacağına inanır, onlardan səs-soraq çıxmayınca ah-naləni ərşə qalxır. Nə edim, min yaşım var, çox kövrək olmuşam. Artıq bu ah-naləyə dözə bilmirəm. Mən də onlar kimi doğma hənirə, nəfəsə möhtacam... Səndən bir xahiş edəsəm, yerinə yetirərsən?

Gözləri aprel buludu kimi dolub, dodaqları səyriyirdi. Sadəcə, başını tərpətməklə razılığını bildirdi.

- Dərdimi, nisgilimi getdiyin yerlərdə hər kəsə söylə. Bir də istəyirsən, şəklimi çək, camaata göstərərsən...

Çox çətin xahiş eşidəcəyini, boynuna babal qoyulacağını düşünürdü. Amma bu istək tələşini azaltdı. Onsuz da ağlı kəsəndən qəlbinin istəyilə bu tapşırığı yerinə yetirir, bu yükü çiyinlərində, ruhunda, ömründə çəkirdi. Qarşıdan yenə yaz gəlirdi...

**Fariz YUNİSLİ**

# Növbəti Buktreyler festivalına start verilib




Kinoaktyor, prodüser Ruslan Sabirlinin təşəbbüsü, Mədəniyyət Nazirliyinin dəstəyi ilə keçirilən Buktreyler festivalının növbəti, sayca 4-cü mövsümünə start verilib. Buktreyler – kitabın məzmununu vizuallaşdırmaqla oxucular arasında təbliğinə istiqamətlənən, onun ən maraqlı anlarını özündə əks etdirən videoçarx (treyler) və qısa filmdir.

2016-cı ildə əsası qoyulan festivalın məqsədi kitaba və mütaliəyə marağın artırılması, film sənayesində yeni istedadların müəyyən edilməsidir.

Festivalın təsisçisi R.Sabirli bildirib ki, 2 fevral – Gənclər günündən elan olunan festivala, ənənəvi olaraq 23 apreldə – Dünya kitab və müəllif hüquqları günündə yekun vurulacaq.

Mədəniyyət Nazirliyi ilə yanaşı, Beynəlxalq Muğam Mərkəzi, C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası festivala dəstək verir. Əsas tərəfdaş "Azercell" mobil operator şirkətidir.

Festival barədə ətraflı məlumatı www.booktrailer.az internet səhifəsindən və ya www.facebook.com/BooktrailerFest/ Facebook səhifəsindən əldə etmək olar.

Həmçinin, bütün suallarla bağlı e-mail vasitəsilə müraciət etmək mümkündür: festival2019@booktrailer.az

Buktreylerlərin son qəbul tarixi: 1 aprel 2019-cu il.

# "Rusiya xarici jurnalistlərin gözü ilə"

Rusiya İnformasiya və Mədəniyyət Mərkəzində Azərbaycan jurnalistləri Zaur Babayevin və Fərhad Nuriyevin "Rusiya xarici jurnalistlərin gözü ilə" kitabının təqdimatı olub.



"Rossotrudniçestvo" Agentliyinin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Valentin Denisov müəllifləri təqdim edib. Bildirib ki, kitabda SSRİ dağılandan sonra Rusiya ilə Azərbaycan arasında siyasi-hüquqi, ticari-iqtisadi, mədəni və humanitar münasibətlərin inkişafı və müasir vəziyyəti kompleks tədqiq edilib.

Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin dosenti, müasir jurnalistikanın nəzəriyyəsinə və təcrübəsinə dair 30-dan çox kitabın müəllifi Zaur Babayev və beynəlxalq münasibətlərdən yazan Fərhad Nuriyev Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyinə həsr olunan kitabın hazırlanmasından bəhs ediblər.

RF-nin Azərbaycandakı səfiri Mixail Boçarnikov, Milli Məclisin deputatı, yazıçı-publisist Elmira Axundova, Miniatür Kitab Muzeyinin təsisçisi, Əməkdar mədəniyyət xadimi Zərifə Salahova, BDU-nun Jurnalistika fakültəsinin professoru Cahangir Məmmədli və başqaları ali məktəblərdə beynəlxalq münasibətlərin öyrənilməsi üçün nəzərdə tutulan bu nəşrin əhəmiyyətindən danışıblar.

Kitabın elmi redaktoru, BDU-nun Beynəlxalq jurnalistika kafedrasının professoru Nəsir Əhmədlidir.

Kitab rəfi

## Həmid Araslının folklorşünaslıq irsi

Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Folklor İnstitutunun aparıcı elmi işçisi Vüsal Səfiyevanın "Akademik Həmid Araslının folklorşünaslıq irsi" kitabı çapdan çıxıb.

Kitabda Həmid Araslının ədəbiyyatşünaslıq, folklorşünaslıq, xüsusən də dastanşünaslıq sahəsindəki fəaliyyəti araşdırılıb. Əməkdar elm xadimi Kamran Əliyev nəşrə "Akademik dəstxəttə məhəbbətlə" sərlövhəli giriş sözü yazıb.

Kitabın "Azərbaycan folklorunun tarixi və nəzəri problemlərinin araşdırılması" adlı birinci fəslində Azərbaycan şifahi xalq ədəbiyyatının tədqiqi tarixində Həmid Araslının yeri və alimin elmi irsində aşıq şeirinin və dastanların tədqiqi məsələləri geniş şərh edilib.

İkinci fəsildə ("Yazılı ədəbiyyat ilə şifahi xalq ədəbiyyatının əlaqə və münasibətləri problemi") alimin ədəbiyyatımızın qədim və orta əsrlər dövrü ilə bağlı müfəssəl fikirləri, apardığı məhsuldar araşdırmalarda gəldiyi qənaətlərdən bəhs edilir. "Folklor örnəklərinin və ədəbi abidələrin nəşrə hazırlanması və şərhi məsələləri" adlı üçüncü fəsil Həmid Araslının mətnşünaslıq fəaliyyətinə, "Kitabi-Dədə Qorqud" və "Koroğlu" eposlarını nəşrə hazırlamasına həsr olunub.

# "Könlüm Qarabağdadır"

## Uşaqlar üçün yeni kitab

Azərbaycan uşaq ədəbiyyatının görkəmli nümayəndəsi, şair, yazıçı, tərcüməçi Teymur Elçinin (1924-1992) "Könlüm Qarabağdadır" kitabı çapdan çıxıb.




Kitabda görkəmli ədibin uşaqlar üçün şeirləri, cizgi filmləri üçün yazılmış ssenari, poema, nəğmə, tapmaca, yanıltmac və başqa janrlarda əsərləri müvafiq başlıqlar altında verilib.

Yazıçının sadə və axıcı dillə yazdığı şeirlərində uşaqların yaş xüsusiyyətləri, psixologiyası və maraq dairəsi nəzərə alınıb.

Nəşrdə folklordan bəhrələnmə yolu ilə yaradılan nümunələr xüsusi diqqət çəkir.

Kitabın tərtibçisi və ön sözün müəllifi filologiya üzrə fəlsəfə doktoru, dosent Aynur Xəlilovadır.

## Tanınmış ədəbiyyatşünasın əsərlərinin yeni cildləri işıq üzü görüb

AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Kamran Əliyevin 10 cildlik əsərlərinin IV və V cildləri işıq üzü görüb. "Klassiklər, müasirlər" adlanan IV cildin elmi redaktoru və ön sözün müəllifi akademik Möhsün Nağısoylu, tərtib edəni filologiya üzrə fəlsəfə doktoru Gülsümxanım Hasilovadır.

Kitabda müəllifin XIX-XX əsrlər Azərbaycan ədəbiyyatı tarixinin tanınmış nümayəndələrinin – M.F.Axundzadə, A.Bakıxanov, C.Məmmədquluzadə, M.Ə.Sabir, A.Səhhət, A.Şaiq, M.Hadi, M.S.Ordubadi, C.Cabbarlı, R.Rza, S.Vurğun və başqalarının həyat və yaradıcılığına aid məqalələri toplanıb.

"Ədəbiyyatşünaslıq, ədəbi tənqid" adlanan V cildin elmi redaktoru və ön sözün müəllifi akademik Kamal Abdulla, tərtib edənləri filologiya üzrə fəlsəfə doktoru Sevinc Əliyeva və Nigar İmaməliyevadır. Bu cilddə müəllifin "Nəzəriyyə məsələləri", "Ədəbi şəxsiyyət", "Ədəbi yaddaş", "Ədəbi dil", "Müasirlik mövqeyi", "Elegiya" başlıqları altında məqalələri, "Abbas Zamanov olmasaydı", "Mustafa Quliyevin ədəbi-tənqidi görüşləri" adlı monoqrafiyaları yer alıb.

**S.QALİBOĞLU**

# Maarif və mədəniyyət yolunda yorulmaz təəssübkeş

Həbib bəy Mahmudbəyov ötən əsrin əvvəllərində Azərbaycan maarifçiliyində və teatr sənətində xidmətlər göstərmiş ziyalılarımızdan biridir.



O, 1864-cü ildə Şamaxı şəhərində doğulub. Molla məktəbində, sonra şəhər məktəbində və Bakıda realnı məktəbdə təhsil alıb. 1883-cü ildə Sultanməcid Qənizadə ilə birlikdə Tiflisdə Aleksandrovsk Müəllimlər İnstitutuna qəbul olunurlar. Hər ikisi təhsili başa vurduqdan sonra Bakıya dönür. Burada ilk özəl rus-müsəlman məktəbinin əsasını qoyurlar. Məktəb tez bir zamanda şöhrət qazanır. Böyük maarifçi və ədəbiyyatşünas Firidun bəy Köçərli yazır ki, 1891-ci ildə Qafqazda maarif müdiri olan Yanovski məktəbi ziyarət edir və həm şagirdlərin oxumasından, həm də cavan müəllimlərin səy və hümmətindən artıq dərəcədə razı qalır.

Milli Azərbaycan Tarixi Muzeyinin elmi işçisi Nərmin Bağırova araşdırmasında qeyd edir ki, məktəbdə təlimin yüksək keyfiyyəti, nümunəvi nizam-intizam və səliqəlilik tezliklə əhalinin diqqətini çəkir. 1891-ci ildə 150 nəfər sakin Bakı Şəhər Dumasına ərizə ilə müraciət edərək belə məktəblərin sayının artırılması və dövlət xərcinə keçirilməsini xahiş edirlər. Həmin il iki məktəb açılır. Birinci məktəbə 35, ikinci məktəbə isə 45 şagird qəbul olunur. H.Mahmudbəyov birinci, S.Qənizadə isə ikinci məktəbin müdiri təyin olunur. Sonralar rus-Azərbaycan məktəblərində S.S.Axundov, A.Şaiq, Ə.Cəfərov, A.Atakişiyev, H.Behbudova və başqa müəllimlər dərs deyirlər.

Qeyd edək ki, 1897-ci ildə S.Qənizadə, H.Mahmudbəyov və Ə.Axundovun rəhbərliyi altında Bakıda nəşriyyat şirkəti də yaradılır. Burada əsasən rus və Azərbaycan dillərində bədii ədəbiyyat, dərsliklər və s. nəşr olunur.

Görkəmli maarif xadimi həm də böyük ictimai maarifləndirmə fəaliyyəti ilə də məşğul olur. Şəhər Dumasında məktəb komissiyasının üzvü kimi Azərbaycan müəllimlərinin birinci qurultayının (1906) keçirilməsində mühüm rol oynayır.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra H.Mahmudbəyov xalq təhsilinin inkişafında yeni istiqamətlərin işlənib hazırlanmasının fəal iştirakçılarından olur. Hökumətin tapşırığı ilə qabaqcıl maarif xadimləri F.Rzabəyli və Ə.Cəfərovla birlikdə Azərbaycan Ali Pedaqoji İnstitutunun yaradılmasında yaxından iştirak edir. Həmin institutda uzun illər direktor müavini, eyni zamanda rus dili və ədəbiyyatı müəllimi işləyir.

Folklorşünas Əbülqasım Hüseynzadə xatirələrində H.Mahmudbəyovun maarif işi ilə yanaşı teatr sənətinə də həssas yanaşdığını yazır: "Həbib bəy Mahmudbəyovu 15 yaşımdan tanıyırdım. Mən o vaxt rus-tatar məktəbində oxuyurdum. Məktəbin direktoru Həbib bəy Mahmudbəyov idi. Bir gün Həbib bəyin təşəbbüsü ilə məktəbdə yaradılmış teatr truppasına üzv yazıldıq. Mən ədəbiyyata və teatra çox həvəs göstərirdim. Bunu Həbib bəy Mahmudbəyov hiss etmişdi. Ona görə də mənə müxtəlif rollar verirdi".

Mənbələrdə bildirilir ki, H.Mahmudbəyov qayğıkeş və xeyirxah bir insan kimi çətin məqamlarda bir çoxlarına yardım göstərib. Məlumdur ki, Hüseyn Ərəblinskinin uşaqlıq illəri ehtiyac və sıxıntı içində keçib. O, kiçik yaşlarından atasını itirir, təhsil xərcini ödəyə bilmədiyi üçün məktəbi buraxmalı olur. Lakin H.Mahmudbəyov onu da rus-tatar məktəbinə qəbul edir...

Milli ziyalı nəslinin yetişməsində böyük əməyi olan maarif və mədəniyyət xadimi Həbib bəy Mahmudbəyov 1928-ci ildə dünyasını dəyişib.

**Savalan FƏRƏCOV**

## Özbəkistan saytı Naxçıvan yallısı haqqında

Özbəkistanın uchildiz.uz portalında "Naxçıvan yallısının Azərbaycanın musiqi mədəniyyətindəki yeri" adlı məqalə yerləşdirilib. Rus dilində məqalədə ölkəmizin regionları üzrə bu rəqsin yayılmasından söz açılır, Naxçıvan yallısının tarixinə nəzər salınır, onun qədim və zəngin mədəniyyətin göstəricisi olduğu vurğulanır.

Yazıda Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda "Yallı" rəqs ansamblının fəaliyyətindən də bəhs edilir. Bildirilir ki, qədim kollektiv rəqsi olan yallı xoreoqrafiya, vokal və instrumental musiqini özündə birləşdirir. Yallı Gəmiqaya arxeoloji abidələrində də əks olunub.

Məqalədə vurğulanır ki, Naxçıvan toylarında ifa edilən yallının bu diyarda onlarla növü var. "Qazı-qazı", "Qaladan-qalaya", "Köçəri","Çınqı-çınqı", "Ağıryallı", "Xalq yallısı", "Şəruri", "İki ayaq", "Üç ayaq", "Urfani", "Xələfi", "Ərzumani" və digər yallı növləri Naxçıvanda daha çox populyardır.

Yazıda Naxçıvan yallısı ilə yanaşı, Qarabağ, Zəngilan, Qazax, Salyan, Şirvan, Şəki və Cənubi Azərbaycanda ifa edilən yallılar haqqında da söhbət açılır.

Xatirə təqvimi — 9-11 fevral

### Azərbaycan

**9 fevral 1909** – Əməkdar artist, müğənni Cahan Rza qızı Talışinskaya (1909 – 1.3.1967) Lənkəranda anadan olub.

**9 fevral 1924** – Xalq rəssamı, tanınmış heykəltəraş Mirələsgər Mirəsədulla oğlu Mirqasımov (1924 – 9.11.2003) anadan olub. Bakıda Cəfər Cabbarlının, Naxçıvanda Cəlil Məmmədquluzadənin abidələrinin müəllifidir.

**9 fevral 1925** – Əməkdar artist, müğənni Rəhilə Mirələsgər qızı Həsənova (1925 - 28.2.2004) anadan olub.

**9 fevral 1936** – Əməkdar incəsənət xadimi, bəstəkar Məmməd Mehdi oğlu Quliyev (1936-2001) anadan olub.

**10 fevral 1828** – Rusiya ilə İran arasında müharibənin (1826-1828) yekunlarına dair Türkmənçay sülh müqaviləsi bağlanıb. Təbriz yaxınlığındakı Türkmənçay kəndində Rusiya generalı İvan Paskeviç və İran şahzadəsi Abbas Mirzənin imzaladığı müqaviləyə əsasən, Azərbaycanın İrəvan və Naxçıvan xanlıqları Rusiyaya birləşdirilib. Azərbaycan torpaqlarının Rusiya və İran arasında Araz çayı boyunca bölüşdürülməsi başa çatıb.

**10 fevral 1918** – Yazıçı Cəmşid Cabbar oğlu Əmirov (1918 - 29.12.1982) Naxçıvan şəhərində anadan olub. "Brilyant məsələsi", "Qara "Volqa" və s. detektiv əsərlərin müəllifidir.

**10 fevral 1927** – Ədəbiyyatşünas, Əməkdar elm xadimi Cahangir Vahid oğlu Qəhrəmanov (1927-1995) Qəbələdə doğulub.

**11 fevral 1914** – Xalq artisti Rəmziyyə Veysəlova (1914 - 22.8.1993) Bakıda doğulub. Gəncə Dövlət Dram Teatrının aktrisası olub.

**11 fevral 1920** – Ədəbiyyatşünas, AMEA-nın müxbir üzvü Əziz Mirfeyzulla oğlu Mirəhmədov (1920-2003) Bakıda anadan olub.

**11 fevral 1929** – Tarixçi alim, Əməkdar elm xadimi, akademik Tofiq Qasım oğlu Köçərli (1929 – 31.10.2007) anadan olub.

**11 fevral 1981** – Xalq artisti, görkəmli teatr və kino aktyoru Möhsün Sənani (Möhsün Sadıq oğlu Cəfərov; 19.6.1900 - 1981) vəfat edib. "Fətəli xan", "O olmasın, bu olsun", "Sehrli xalat", "Dağlarda döyüş" və s. filmlərdə çəkilib.

### Dünya

**9 fevral 1441** – Özbək şairi və mütəfəkkiri, dövlət xadimi Əlişir Nəvai (Nizaməddin Mir Əlişir oğlu Nəvai; 1441 - 3.1.1501) Heratda doğulub. Nizami Gəncəvinin "Xəmsə"sindən təsirlənərək eyniadlı əsərlər toplusu (beşlik) yaradıb.

**9 fevral 1874** – Alman əsilli rus rejissoru, aktyor, teatr xadimi Vsevolod Meyerhold (Karl Kasimir Theodor Meyergold; 1874-1940) anadan olub.

**9 fevral 1881** – Böyük rus yazıçısı Fyodor Mixayloviç Dostoyevski (11.11.1821 - 1881) vəfat edib. "Alçaldılmış və təhqir olunmuşlar", "Cinayət və cəza", "İdiot", "Şeytanlar", "Yeniyetmə", "Karamazov qardaşları" və s. romanların müəllifidir.

**10 fevral 1890** – Rus şairi və yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1958) laureatı Boris Leonidoviç Pasternak (1890-1960) anadan olub. Əsərləri: "Doktor Jivaqo" (roman), "Leytenant Şmidt", "Spektorski" (poema) və s.

**10 fevral 1898** – Alman dramaturqu, rejissor və teatr nəzəriyyəçisi Bertold Brext (Eugen Berthold Friedrich Brecht; 1898-1956) anadan olub. Pyesləri: "Üç quruşluq opera", "Kuraj ana və uşaqları", "Qalileyin həyatı" və s.

**11 fevral 1900** – Alman filosofu, "fəlsəfi hermenevtika"nın banisi Hans-Georq Qadamer (Hans-Georg Gadamer; 1900-2002) anadan olub.

**11 fevral 1917** – Amerika yazıçısı və ssenaristi Sidni Şeldon (Sidney Sheldon; 1917-2007) anadan olub.

**Hazırladı: Vüqar ORXAN**

AFİŞA — 9-10 fevral

**Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı (Nizami küç. 95)**

| | | |
|---|---|---|
| 9 fevral | C.Puççini - "Bohema" (opera) | 19.00 |
| 10 fevral | F.Şubert - "Dahi hekayəçi" (balet) | 14.00 |

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı (Füzuli meydanı 1)**

| | | |
|---|---|---|
| 9 fevral | C.Rodari - "Çipollino"<br>İ.Əfəndiyev - "Boy çiçəyi" | 12.00<br>19.00 |
| 10 fevral | C.Məmmədquluzadə - "Anamın kitabı"<br>A.Saqarelli - "Xanuma" | 12.00<br>19.00 |

**Azərbaycan Dövlət Musiqili Teatrı (Zərifə Əliyeva küç. 8)**

| | | |
|---|---|---|
| 9 fevral | O.Zülfüqarov, R.Heydər - "Dəcəl çəpişlər"<br>F.Sücəddinov, T.Vəliyeva - "Mən dəyərəm min cavana" | 12.00<br>19.00 |
| 10 fevral | A.Xayt, A.Kurlyandski - "Bir dayan, canavar!" (rus dilində)<br>F.Əmirovun musiqiləri əsasında - "999-cu gecə" | 12.00<br>19.00 |

**Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı (Nizami küç. 72)**

| | | |
|---|---|---|
| 9 fevral | Azərbaycan xalq nağılı - "Dəcəl keçi"<br>İ. Əfəndiyev - "Məhv olmuş gündəliklər" | 14.00<br>19.00 |
| 10 fevral | Y. Şvarts - "Qırmızıpapaq"<br>H.Cavid - "Şeyx Sənan" | 14.00<br>19.00 |

**Azərbaycan Dövlət Rus Dram Teatrı (Xaqani küç. 7)**

| | | |
|---|---|---|
| 9 fevral | V.Reznikova – "Durna balığının əmri ilə"<br>P.Qladilin – "Afina axşamları" | 12.00<br>19.00 |
| 10 fevral | V.Neverov – "Nağılı tap – 5"<br>R.Kuni – "Kişi, qadın, pəncərə... məşuq" | 12.00<br>19.00 |

**Azərbaycan Dövlət Kukla Teatrı (Neftçilər pr. 36)**

| | | |
|---|---|---|
| 9 fevral | Azərbaycan xalq nağılı - "Ağ babanın nağılı" | 12.00, 14.00 |
| | Rus xalq nağılı - "Qoğal" (rus dilində) | 16.00 |
| 10 fevral | J.Barri - "Piter Pen" | 12.00, 14.00 |
| | T.Ağayev - "Qoçaq Əhməd" (rus dilində) | 16.00 |

**Yuğ Dövlət Teatrı (Neftçilər prospekti 36 - Kukla teatrının binası)**

| | | |
|---|---|---|
| 9 fevral | M.F.Axundzadənin əsərləri əsasında - "Naməlum Axundzadə" | 19.00 |
| 10 fevral | A.B.Kasares - "Qəbirqazma üsulu" | 19.00 |

**Azərbaycan Dövlət Pantomima Teatrı (Azadlıq pr. 10)**

| | | |
|---|---|---|
| 9 fevral | B.Əhmədli - "Ağbığlılar" | 18.00 |
| 10 fevral | B.Xanızadə - "Adajio" | 18.00 |

**Heydər Əliyev Sarayı (Bülbül pr. 35)**

| | | |
|---|---|---|
| 10 fevral | Müğənni Zamiq Hüseynovun "Bu gün bizim günümüz" adlı konserti | 19.00 |



# "May ayında Bakıda konsertimiz olacaq"

## Parisdə ilk dəfə solo konsert verən məşhur tenor doğma şəhərində də sənətsevərlərlə görüşə hazırlaşır

Dünya şöhrətli azərbaycanlı tenor, Xalq artisti Yusif Eyvazov fevralın 7-də Paris Operasının Qavo (Gaveau) konsert zalında solo konsertlə çıxış edib.



Konsert öncəsi Parisdəki Azərbaycan Mədəniyyət Mərkəzində sənətçinin mətbuat konfransı keçirilib. Fransadakı səfirliyimizin müşaviri Vaqif Ağayev azərbaycanlı tenor haqqında məlumat verib. Yusif Eyvazov özünün vokalçılıq fəaliyyəti, Azərbaycan musiqi sənəti barədə jurnalistlərin suallarını cavablandırıb.

Azərbaycanın qədim musiqi ənənəsi olduğunu vurğulayan Y.Eyvazov ölkəmizin bəstəkarlıq məktəbi haqqında geniş məlumat verib, eləcə də tanınmış opera ifaçıları Bülbül, Lütfiyar İmanov haqqında danışıb. Bildirib ki, ölkəmizdə klassik musiqi sahəsində olduğu kimi, opera sahəsində də tarixi ənənələr qorunur: "Azərbaycanın zəngin musiqi irsi var. Opera musiqisi sahəsində Azərbaycan məktəbinin xüsusi yeri mövcuddur. Klassik musiqi irsinin yaşadılması, gələcək nəsillərə çatdırılması sahəsində bəstəkarlarımız, ifaçılarımız musiqi tariximizdə dərin iz qoyublar".

Sənətçi ölkəmizdə mədəniyyət nümayəndələrinə, xüsusilə də musiqi ifaçılarına xüsusi qayğı göstərildiyini bildirərək, Heydər Əliyev Fondunun bu sahədə fəaliyyətindən söz açıb, gənc musiqiçilərin xaricdə təhsil almasına, festivallarda iştirakına dəstək verildiyini vurğulayıb.

Azərbaycanlı tenor müxtəlif ölkələrdə nəzərdə tutulan konsertləri, beynəlxalq musiqi turları haqqında məlumat verib.

"Parisdə ilk dəfə solo konsert proqramı ilə çıxış edəcəyimə görə həyəcanlıyam, amma inanıram ki, konsert uğurlu keçəcək və musiqisevərlərin ürəyincə olacaq", – deyə o bildirib.

Məşhur tenor həmçinin doğma şəhərində sənətsevərlərlə görüşə hazırlaşdığını deyib: "Bu ilin may ayında Bakıda konsertimiz olacaq. Konsertə ciddi hazırlıq işləri gedir, yəqin ki, tezliklə dəqiq tarix elan olunacaq".

İfaçı təəssüflə bildirib ki, işlərinin çoxluğundan Azərbaycana istədiyi kimi tez-tez gedə bilmir. O, doğma şəhəri Bakının gündən-günə gözəlləşdiyini bildirib.

# Türk dünyasının bəstəkarları "Sənət kəndi"ndə bir araya gəliblər

TÜRKSOY təşkilatı hər il ənənəvi olaraq həyata keçirdiyi müxtəlif layihələrlə Türk dünyasının sənət adamlarını – rəssamları, fotoqrafları, teatr xadimlərini bir araya gətirir, onlar arasında yaradıcılıq ünsiyyəti, qarşılıqlı mübadilə yaradır.



Belə layihələrdən biri də "TÜRKSOY-un bəstəkarlar görüşü"dür. Bu il layihə üçüncü dəfə Türkiyənin Bolu vilayətinin Seben rayonundakı "Sənət kəndi"ndə gerçəkləşir.

2017-ci ildə TÜRKSOY-un təşəbbüsü və Bolunun Seben Bələdiyyəsinin dəstəyi ilə qədim tarixi məkanda – eramızdan əvvəl frikyalılar tərəfindən istifadə edilən və günümüzə qədər gəlib çatan "Solaklar qaya evləri"nin ətəyində "Türk dünyası sənət kəndi" yaradılıb.

Burada inşa edilən evlərin Türk dünyasının korifey bəstəkarlarının xatirəsinə onların adları ilə adlandırılıb. Sənət evlərindən birinə Azərbaycan bəstəkarı Qara Qarayevin adı verilib. "Sənət kəndi"hər il Türk dünyası bəstəkarlarının yaradıcılıq görüşünün məkanına çevrilir.

TÜRKSOY, Bolu və Seben bələdiyyələrinin işbirliyi əsasında həyata keçirilən layihə çərçivəsində bəstəkarların budəfəki görüşü fevralın 5-dən 15-dək davam edəcək. Onlar bu müddətdə bir-biri ilə sənət ünsiyyəti quracaq, yeni əsərlər yaradacaqlar.

Türk dünyası bəstəkarlarının əsərləri bu il doğumunun 125-ci ili qeyd edilən Aşıq Veysələ ithaf ediləcək. Xatırladaq ki, TÜRKSOY 2019-cu ili "Aşıq Veysəlin anım ili" elan edib. Həmçinin layihə çərçivəsində iştirakçılar musiqi təhsili mövzusunda fikir mübadiləsi aparacaqlar.

**Mehparə SULTANOVA**
**Ankara**

# Çinarə Əlizadə Polşa teatrında çıxış edib



Varşava Böyük Teatrı və Milli Operasında (Teatr Wielki – Opera Narodowa) Aleksandr Dümanın "Kameliyalı qadın" adlı romanı və görkəmli polyak bəstəkarı F.Şopenin musiqisi əsasında hazırlanmış balet nümayiş edilib.

Ölkəmizin Polşadakı səfirliyindən bildirilib ki, səhnə əsərində Marqarita obrazını Azərbaycanın Əməkdar artisti Çinarə Əlizadə canlandırıb. Həmyerlimizin çıxışı maraqla qarşılanıb. Səhnə əsərini Azərbaycanın Polşadakı səfiri Həsən Həsənov da izləyib.

Qeyd edək ki, Çinarə Əlizadə, eyni zamanda Polşa Milli Baletinin birinci solistidir.

# Paytaxtımızda "Fransanın dadı"

Martın 1-dən 16-dək Bakıda "Fransanın dadı" beynəlxalq qastronomiya festivalı keçiriləcək. Artıq ənənə halını alan festival bu il beşillik yubileyini qeyd edir.




Festival ərəfəsində "İnstitut Français d'Azerbaidjan" komandası fransız mətbəxinə aid film nümayişləri və müsabiqələr təşkil edir. "Landmark"da fevral ayının hər cümə günü Fransanın mətbəxinə həsr olunan bədii və sənədli əsərlər nümayiş olunacaq.

Fransız mətbəxi fransız mədəniyyətinin ayrılmaz bir hissəsidir. Fransız kinematoqrafını isə fransız komediyası olmadan təsəvvür etmək mümkün deyil.

Fevralın 8-də fransalı rejissor Filip Muilin "Mətbəx və asılılıq" filmi nümayiş ediləcək. Fransanın ölkəmizdəki səfirliyindən bildirilib ki, arzu edən kinosevərlər "Landmark"da təqdim olunacaq komediya filmini fransız dilində izləyə bilərlər. Seansa giriş ödənişsizdir.

# Alparslan Türkeşin evi muzeyə çevrilir

Türkiyənin məşhur siyasi xadimi, Milliyyətçi Hərəkət Partiyasının qurucusu Alparslan Türkeşin doğulduğu və 16 yaşına qədər yaşadığı Şimali Kipr Türk Respublikasının paytaxtı Lefkoşadakı evi muzey olacaq. Evdə TİKA tərəfindən təmir-bərpa işləri aparılıb.

Şimali Kipr Türk Respublikasının ilk lideri, mərhum Rauf Denktaşın həyat yoldaşı Aydın Denktaşın cənazə mərasiminə qatılmaq üçün adaya gedən Türkiyə Prezidentinin köməkçisi Fuad Oktay və Alparslan Türkeşin oğlu, millət vəkili Tuğrul Türkeş görülən işlərlə tanış olublar.

T.Türkeş bildirib ki, Alparslan Türkeşin evi 1920-ci illərə aid olan tipik Kipr evidir: "Atam orta məktəb illərində, yəni 16 yaşına qədər bu evdə yaşadı. Həmin evin eynisini qurub, bərpa etməyə nail olduq".

Qeyd edək ki, ev-muzey mart ayında açılacaq.

Alparslan Türkeş 1917-ci ildə Lefkoşadakı Haydarpaşa məhəlləsində dünyaya gəlib. 1933-cü ildə ailəsi ilə birlikdə İstanbula köçüb.

# San-Remoda növbəti estrada mahnıları festivalı

Fevralın 5-də San-Remo şəhərində məşhur italyan estrada mahnıları festivalı başlayıb. 1951-ci ildən keçirilən ənənəvi musiqi bayramı bu il 69-cu dəfə təşkil olunur.




"Ariston" teatrında keçirilən festival İtaliyanın "Rai" dövlət televiziya və radiosu tərəfindən canlı yayımlanır. Festivalın bədii rəhbəri və aparıcısı Klaudio Balyonidir.

Fevralın 9-dək davam edəcək müsabiqədə münsiflər heyəti və tamaşaçılar 24 ifaçının çıxışlarını qiymətləndirəcək.

Onların arasında tanınmış müğənnilər Ariza, Nek, Simone Kristikki və başqaları var. İtalyan estradasının veteranı müğənni Pati Pravo isə gənc səhnə tərəfdaşı Briqa ilə duet təqdim edəcək.

Festivalın sonuncu günü qalib elan olunacaq.

Onu da qeyd edək ki, festivalın qonaqları arasında populyar musiqiçilər – Eros Ramazzotti, Luçano Liqabue, Corca, məşhur tenor Andrea Boçelli, İtaliya kinosunun aparıcı aktyorları var.

**SƏBİNƏ**

# Amerika Rejissorlar Gildiyası ilin ən yaxşılarını açıqlayıb




ABŞ Prodüserlər Gildiyasının ardınca Amerika Rejissorlar Gildiyası (Directors Guild of America – DGA) da ənənəvi kino mükafatlarını təqdim edib. Fevralın 4-də Beverli-Hillzdə (Kaliforniya ştatı) keçirilən 71-ci mükafatlandırma mərasimində qaliblər elan olunub.

Gildiyanın "Ən yaxşı tammetrajlı film rejissoru" mükafatı meksikalı Alfonso Kuarona "Roma" filminə görə verilib. Ekran əsəri 1970-ci illərdə Meksikada yaşayan sıravi ailənin həyatından bəhs edir.

"Dramatik serial üzrə ən yaxşı rejissor" mükafatına "Vərəsələr" teleşousuna görə Adam Makkey layiq görülüb.

"Ən yaxşı debüt" mükafatı "Səkkizinci sinif" filminə görə Bo Bernə verilib. Film "YouTube" dövründə böyüyən məktəbli qızlardan bəhs edir.

"Ən yaxşı sənədli film rejissoru" titulunu isə bu dəfə "Üç eyni yabançılar" filminin rejissoru Tim Uorld qazanıb.

Qeyd edək ki, Amerika Rejissorlar Gildiyasının mükafatı 1948-ci ildə təsis edilib, kino və televiziya sahəsində seçilən rejissorlara verilir.

Bu ənənəvi təqdimat eyni zamanda kinematoqrafçıların "Oskar" yolunda son sınağı sayılır. Qeyd edək ki, Amerika Kino Akademiyasının sayca 91-ci "Oskar" mükafatının təqdimetmə mərasimi fevralın 24-də Los-Anceles şəhərində keçiriləcək.

**LALƏ**

# "Troya" üç yüz nəfərlə Moskvaya gedir

Türkiyə Dövlət Opera və Balet Teatrının repertuarında xüsusi yer tutan "Troya" operası Moskvanın məşhur Böyük Teatrında nümayiş olunacaq.



Tamaşanın nümayişi "2019: Rusiya – Türkiyə mədəniyyət və turizm ili" çərçivəsində reallaşacaq.

Aprelin 8-də rusiyalı teatrsevərlərə təqdim ediləcək tamaşa Böyük Teatrda nümayiş olunacaq ilk türk səhnə əsəridir.

Operanın nümayişində 300 nəfərə yaxın yaradıcı heyət iştirak edəcək. Bundan başqa, sözügedən səhnə əsərinin yaxın vaxtlarda Berlində də nümayişi nəzərdə tutulur.

Qeyd edək ki, "Troya" operasını Homerin məşhur "İliada" eposunun motivləri əsasında rumıniyalı bəstəkar Bujor Hoinic yazıb. Bu, əcnəbi bəstəkarın türkcə yazdığı ilk operadır. Əsər 2018-ci ildə Ankarada tamaşaya qoyulub.

# Əsərə şöhrət gətirən qarət

## "Ay-Petri. Krım"ı görmək istəyənlər saatlarla növbədə dayanır

Bu günlər Moskvadakı Dövlət Tretyakov Qalereyasını ziyarət edənlərin sayı hədsiz dərəcədə çoxalıb. Qalereyaya elektron biletlərin demək olar ki, hamısı satılıb, binanın qarşısında saatlarla növbələr olur. Buna səbəb isə yanvarın 27-də qalereyadan oğurlanmış, az sonra oğru ilə birlikdə ələ keçirilmiş əsər – Arxip Kuincinin "Ay-Petri. Krım" tablosudur.



XIX əsrdə yaşamış mənzərə janrı ustasının əsərinin oğurlanması və yenidən sərgi ekspozisiyasına qaytarılması belə bir ajiotajın yaranmasına gətirib çıxarıb.

Yanvarın 27-də qalereyaya gələn ziyarətçi heç bir şübhə yaratmadan divardan asılan əsərə yaxınlaşıb və onu götürərək binanı tərk edib. Təcili olaraq başlanılan axtarış nəticəsində oğru 8 saatdan sonra tutulub və əsər geri qaytarılıb. Xoşbəxtlikdən tablo zədələnməyib.

Arxip Kuinci (türkcə kuyumcu – zərgər sözündən) yunan-tatar əsilli rus rəssamıdır. 1840-cı illərdə (dəqiq təvəllüdü məlum deyil) Azov dənizi sahilindəki Mariupol şəhərinin (Ukraynanın Donetsk vilayəti) Qarasu məhəlləsində anadan olub. 1910-cu ildə vəfat edib. Yunan-urumlar (türk dil qrupuna aid urum dilində danışırlar) Mariupola XVIII əsrin sonlarında çar hökuməti tərəfindən Krımdan köçürülüb.

Ay-Petri Krımda dağdır. Arxip Kuinci dağ peyzajı tablosunu XIX əsrin sonlarında yaradıb. Şaxtalı şəfəqin ultrabənövşəyi çalarlarını əks etdirən tablo rəssamın ən məşhur əsərlərindən biridir.

Hüquq mühafizə orqanları tərəfindən geri qaytarılan əsər yenidən ekspozisiyada öz yerini alıb. Bu dəfə isə daha etibarlı şəkildə qorunmaq şərtilə. Tretyakov qalereyasında "Ay-Petri. Krım" tablosu fevralın 17-dək sərgilənəcək. Bundan sonra isə o yenidən öz saxlandığı muzeyə, Sankt-Peterburqdakı Rus Muzeyinə qaytarılacaq.

**L.AZƏRİ**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Moskva pr, 1D.
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-57-72 (redaktor)
530-34-38 (məsul katib)
430-16-79 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5245
**Sifariş:** 465
**Buraxılışa məsul:** Fariz Yunisli
Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.